# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 212 (8805) BAZAR, 3 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




◆ Zəfərin izi ilə

# "Dəmir yumruğ"un SUQOVUŞAN zərbəsi





## Bir il öncə azad edilən Suqovuşan indi sürətlə dirçəlir, yenidən qurulur

**44 günlük müharibədə mövqelərimizdən geri çəkildiyimiz bircə gün belə olmadı, hər gün cəsarətlə daha irəliyə gedirdik. Prezident İlham Əliyevin də dediyi kimi, artıq hər kəs Azərbaycan Ordusunun yalnız irəliyə getməsinə adət etmişdi: "Cəmiyyət praktiki olaraq hər gün mənim "Twitter" səhifəmdə yeni məlumatlar, yaxud xalqa müraciətlərimi gözləyirdi. Bir neçə gün bunlar olmayanda fikirləşirdilər ki, görəsən nə olub? Artıq hamı adət etmişdi ki, biz irəliyə gedirik".**

Budur, artıq şanlı Vətən müharibəsinin yeddinci günüdür - 2020-ci il 3 oktyabr...

Ötən günlər ərzində cəbhədən ancaq Zəfər səsi eşidən, xoş müjdələr alan Azərbaycan xalqına Ali Baş Komandan İlham Əliyev daha bir qələbə xəbəri verir: "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"

Döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyi üçün 1-ci Ordu Korpusunun bütün şəxsi heyətini təbrik edən Prezident İlham Əliyev həmin gün daha bir ədalətsizliyi aradan qaldıraraq Madagizin tarixi adını bərpa etdiyini açıqlayır: "Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır".

### Ermənistanın ən güclü hərbi hissələrindən biri Suqovuşanda idi

Suqovuşan sovet dövründə - 1923-cü ildə Ağdərə rayonunun inzibati ərazisinə kənd kimi daxil edilib. 1943-cü ildə şəhər tipli qəsəbə statusu alıb. 1992-ci ildə Ağdərə rayonu ləğv edildiyindən onun ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürülüb. Həmin zaman Suqovuşan da Tərtər rayonuna birləşdirilib.

Suqovuşan ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Sonradan Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edib.

Ermənilər işğal dövründə - 2014-cü ildə Suqovuşanda balıqartırma zavodu tikiblər. Təcavüzkar siyasətlərinin ömürlük olacağını düşünən işğalçılar bu kənddə balıqartırma zavodu tikməklə ixracla bağlı da müəyyən xəyallar qurmuşdular.

*Ardı 4-cü səh.*

# "Artıq mövcud olmayan qurumun statusu haqqında danışmağın yeri yoxdur"

## Fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi, ermənilərin də eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

**- Sabahınız xeyir, cənab Prezident.**

- Sabahınız xeyir.

**- Mənə vaxt ayırdığınız üçün təşəkkür edirəm.**

- Təşəkkür edirəm. Sizi görməyə çox şadam.

**- Mən həqiqətən buna görə Sizə minnətdaram.**

- Təşəkkür edirəm. Auditoriyanız qarşınızda çıxış etmək imkanına görə sizə təşəkkür edirəm.

**- Dərhal suallara keçəkmi?**

- Bəli, necə istəyirsiniz.

**- Cənab Prezident, bir il bundan əvvəl Dağlıq Qarabağda müharibə başlamışdır və Siz əksər ərazilər üzərində nəzarətə təkrarən yiyələndiniz. Noyabrda Siz mənə dediniz ki, müharibədən sonra bir araya gəlməyə və ya danışıqlar masasına qayıtmağa razı olacaqsınız. Siz indi baş nazir Paşinyanla birbaşa bir araya gəlməyə hazırsınızmı və əgər cavabınız "bəli"dirsə, bu, nə zaman baş verəcək və hansı formatda?**

- Bəli, sizə keçən dəfə dediyim kimi biz hazırıq. Əslində, danışıqlar və təmaslar başlamışdır. Azərbaycan, Ermənistan və Rusiyanın Baş nazirlərinin müavinləri səviyyəsində əməkdaşlığın formatı mövcuddur və bu format kommunikasiyaların açılması məsələsinə həsr olunub. Həmçinin bu yaxınlarda BMT Baş Assambleyasının sessiyası çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü baş tutub. Bu, müharibə bitəndən sonra birinci dəfə baş vermişdir. Bizim nazirin mənə verdiyi məlumata görə hesab edirəm ki, görüş konstruktiv və ümidverici olmuşdur. Bizim mövqeyimiz müharibə bitəndən sonra dəyişməz olaraq qalır. Biz Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istəyirik. Biz dərhal sərhədlərimizin delimitasiyasına və əlbəttə ki, bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırıq. Həmçinin biz gələcək sülh sazişi üzərində Ermənistanla işləməyə başlamağa hazır olduğumuzu bildirmişik. Bütün bu təşəbbüslər tərəfimdən və digər Azərbaycan rəsmiləri tərəfindən dəfələrlə vurğulanmışdır. Lakin əfsuslar olsun ki, Ermənistan hələ də buna müsbət cavab verməyib. Beləliklə, bizim mövqeyimiz dəyişməz olaraq qalır və bəzi addımlar var, lakin hesab edirəm ki, biz bu il ərzində daha çox irəliləyişə nail ola bilərdik.

*Ardı 2-ci səh.*

# Məhsuldar sort yüksək nəticənin qarantıdır

## Azərbaycanda Pakistanın atomla şüalandırılan pambıq sortları sınaqdan keçirilib

Ölkədə pambıqçılığın inkişafına xüsusi diqqət yetirilir və bu, səbəbsiz deyil. Əvvəla, pambıq zəhmət tələb etsə də, həm əkinçi, həm də emal müəssisəsi üçün gəlirli bitkidir. İkincisi, pambıqçılıq əməktutumlu sahədir ki, indiki zamanda da bunun sosial əhəmiyyəti böyükdür. Bunlardan əlavə, pambıq toxuculuq sənayesinin inkişafında xammal kimi önəmli rol oynayır.

Sovetlər dönəmində istehsal olunan pambıq sayəsində Azərbaycanda tekstil sənayesi yüksək səviyyədə inkişaf etmişdir. Eyni zamanda respublikamızda istehsal edilən pambıqdan SSRİ-nin toxuculuq və yüngül sənaye müəssisələrində də xammal kimi istifadə olunurdu.

Məlum səbəblərdən ötən əsrin 90-cı illərində Azərbaycanda pambıq istehsalı kəskin şəkildə azaldı. Bu azalma Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrin, o cümlədən pambıqçılığın dirçəldilməsi istiqamətində gördüyü tədbirlərədək davam etdi. Həmin tədbirlər çərçivəsində pambıq əkini ilə məşğul olan fermerlərə maddi dəstək verildi, dünyanın inkişaf etmiş ölkələrindən müxtəlif texnikalar alıb gətirildi, fermerlərə "Aqrolizinq" xətti ilə xidmət göstərilməsi təşkil edildi, imkanı olanlara güzəştli qiymət və şərtlərlə müasir texnikalar satıldı və s. Bütün bunlar ölkədə pambığın əkin sahələrinin genişlənməsinə və məhsul istehsalının artmasına səbəb oldu.

*Ardı 7-ci səh.*

# Bir il əvvəl Gəncə müdhiş günlər yaşadı



**2020-ci ilin 27 sentyabr tarixi Azərbaycan xalqının yaddaşında uzun illər Zəfərin başlanğıcı kimi qalacaq. Həmin gün başlanan haqq savaşımız bizi sonda böyük Qələbəyə apardı.**

## Ermənistanın Gəncəyə oktyabrın 4-dən başlayan raket hücumları bütün bəşəriyyətə qarşı törədilən cinayət idi

30 ilin həsrətinə son qoyan 44 günlük müharibənin əks-sədası bütün dünyaya səs saldı. Rəşadətli Azərbaycan Ordusu qısa vaxt ərzində Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müasir hərb tarixinə əsl qəhrəmanlıq dastanı yazdı.

Ermənistan 30 il idi ki, Azərbaycana qarşı təhdidlərlə çıxış edirdi. Düşmən ölkə "yeni ərazilər uğrunda yeni müharibə" aparmaq iddiasında idi. Amma işğalçılar bilmirdilər ki, ölkəmiz artıq 90-cı illərdəki Azərbaycan deyil.

*Ardı 7-ci səh.*

# Xüsusi karantin rejiminin yumşaldılması pandemiyanın yox olması deyil

## Buna görə məsuliyyətimizi unutmamalıyıq

Sentyabr ayının sonlarında təhsil ocaqlarında ənənəvi dərslərin başlanmasından sonra növbə digər məkanlara da çatdı. Belə ki, ölkə üzrə peyvənd olunan vətəndaşların sayının artması və eyni zamanda yoluxma hallarının dinamikasının davamlı şəkildə azalması nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirlərinin növbəti mərhələsinin tətbiqi ilə bağlı qərar qəbul olundu.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, 2021-ci il oktyabrın 1-dən etibarən həftəsonu ictimai nəqliyyatda, Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması ilə bağlı məhdudiyyət ləğv edildi. Qərara əsasən, həmin gündən bir sıra iş və xidmət sahələrinin də fəaliyyəti bərpa edildi. İstirahət və əyləncə məkanlarının (klublar daxil olmaqla), həmçinin uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisində olanlar daxil olmaqla), ümumi tutumunun 50 faizindən çox olmamaq şərtilə mədəniyyət obyektlərinin (konsert zalları daxil olmaqla), eləcə də konfrans zallarının, teatrların, iri ticarət mərkəzlərinin nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, o cümlədən ümumi tutumunun 50 faizindən çox olmamaqla kinoteatrların fəaliyyətinə start verildi.

*Ardı 7-ci səh.*

# "Artıq mövcud olmayan qurumun statusu haqqında danışmağın yeri yoxdur"

## Fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi, ermənilərin də eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq

*Əvvəli 1-ci səh.*



**- Lakin Sizin bu gün baş nazir Paşinyanla bir araya gəlməyə heç bir niyyətiniz yoxdur?**

- Mən hazıram və mövqeyimi artıq ifadə etdim. Ermənistan tərəfi hazırdırsa, mən də hazıram. Bizim bir görüşümüz olmuşdur və o, Rusiya Prezidenti Vladimir Putinin dəvəti əsasında bu ilin əvvəlində üçtərəfli formatda keçirilmişdir. Mən cənab Paşinyanla o, hazır olanda istənilən zaman danışmağa hazıram. Beləliklə, mən bu müzakirələrə açığam və hesab edirəm ki, bu, müharibənin bitdiyinin və həmin səhifənin çevrildiyinin yaxşı göstəricisi ola bilər. Bu, çox vacibdir. Çünki biz hələ də Ermənistan siyasi isteblişmentində revanşizm cəhdlərini nümayiş etdirən bəyanatları, tarixən və beynəlxalq hüquq əsasında bizə məxsus olan əraziləri təkrar ələ keçirmək üçün gələcək planların qurulması cəhdlərini görür və eşidirik. Buna görə Ermənistan hökumətinin iradəsi, ciddi iradəsi, təkcə sözlər, bəyanatlar yox, əməllər müharibənin bitməsini və bizim sülh dövrünə doğru irəlilədiyimizi nümayiş etdirəcək.

**- Lakin Ermənistan üçün hələ Dağlıq Qarabağın statusu məsələsi var və keçmişdə Siz onlara qismən muxtariyyət kimi imkanlar təklif etmişdiniz. Bu, hələ də qüvvədədirmi, yoxsa artıq müzakirə predmeti deyil?**

- Səmimi desəm, son dövrdə biz Ermənistandan həmin ərazinin statusu ilə bağlı heç bir bəyanat eşitməmişik. Əfsuslar olsun ki, bu fikirlər bəzi digər ölkələr, onların yüksəksəviyyəli nümayəndələri tərəfindən səslənir. Bizim mövqeyimizə gəldikdə, mən bunu dəfələrlə bildirmişəm. Demək olar ki, 30 illik danışıqlar prosesi ərzində Azərbaycanın mövqeyi çox konstruktiv olmuşdur. Biz deyirdik ki, - Minsk qrupunun həmsədrləri bunu çox yaxşı bilirlər, - Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə verməyə hazır idik. Lakin bu mövqeyi Ermənistan tərəfi həmişə rədd etmişdir və onlar həmişə "Dağlıq Qarabağ" adlandırdıqları ərazi üçün müstəqillik tələb edirdilər. Lakin bu gün, müharibə bitəndən və münaqişə öz həllini tapdıqdan sonra bu, təkcə mənim mövqeyim deyil, bu, dünyanın, beynəlxalq ictimaiyyətin əksər hissəsinin mövqeyidir ki, artıq mövcud olmayan "qurumun" statusu haqqında danışmağın yeri yoxdur. Çünki Dağlıq Qarabağ mövcud deyil. Bizim ərazimizdə belə inzibati vahid yoxdur. Bu il iyulun 7-də mən Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası ilə bağlı fərman imzaladım. Biz iki iqtisadi zona - Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratdıq və onlar bütün bu ərazini əhatə edir. Bu gün Rusiya sülhməramlılarının məsuliyyət daşıdığı ərazidə - Qarabağda yaşayan 25 minə yaxın etnik erməni bizim vətəndaşlardır. Onların fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq. Qısaca desək, status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır.

**- Sizin dediyiniz kimi, sərhədlərin delimitasiyası, hərbi əsirlər, minalardan təmizləmə kimi müzakirə olunası bir çox başqa məsələlər var. Bu məsələlər üzərində iş necə gedir? İrəliləyiş varmı, yoxsa hər şey dayanıb?**

- Dırnaqarası müharibə əsirlərinə gəldikdə, mən sizin tamaşaçılarınız üçün bu məsələyə aydınlıq gətirmək istəyirəm. Mən dəfələrlə beynəlxalq hüququn normalarına və beynəlxalq konvensiyalara istinad edərək, hansı şəxslərin müharibə əsirləri hesab oluna biləcəyi ilə bağlı danışmışam. Beynəlxalq konvensiyalara əsasən, belə şəxslər müharibə zamanı saxlanılmış və ya əsir götürülmüş insanlardır. Müharibə zamanı saxlanılmış bütün şəxslər müharibə başa çatan kimi tərəfimizdən dərhal qaytarılıb. Əslində, biz onları Ermənistan bizim əsirləri qaytarmamış geri vermişik. Ermənistan və bəziləri tərəfindən "müharibə əsirləri" adlandırılan sonra saxlanılmış və artıq həbsdə olanlar bu kateqoriyaya daxil deyillər. Bu adamlar işğaldan azad olunmuş ərazilərə noyabrın sonunda - müharibənin başa çatmasından və Ermənistanın kapitulyasiya aktını imzalamasından iki həftə sonra göndərilənlərdir. Onlar azad etdiyimiz ərazilərdə dekabrın əvvəlində saxlanılıblar. Bunlar 62 nəfərdən ibarət olub və onların bəziləri cinayətlər törədiblər. Onlar bizim hərbçilərimizə hücum edib və dörd nəfəri qətlə yetiriblər. Yəni, bunlar müharibə əsirləri deyil, onlar azərbaycanlı mülki əhaliyə və hərbçilərə hücum etmək məqsədilə göndərilmiş terrorçu və diversiya qrupunun üzvləridir. Buna baxmayaraq, biz bu müddət ərzində onların bəzilərini geri qaytardıq ki, bu da xoş məramın göstəricisi idi.

Ermənistan tərəfindən işğal altında olmuş keçmiş ərazilərdə basdırılmış minaların xəritələrinə gəldikdə, burada söhbət yüz minlərlə minadan gedir. İlkin olaraq, minalanmış ərazilərin xəritələri tərəfimizdən tələb edildikdə, Ermənistan hökuməti ən yüksək səviyyədə bəyan edirdi ki, onlarda belə xəritələr yoxdur. Müharibə bitdiyi bir ilə yaxın dövrdə Ermənistanın xəritələri bizə verməməsi nəticəsində mülki vətəndaş və hərbçilərimiz arasında 150 nəfər həlak olmuş və ya ağır yaralanmışdır. Bu yaxınlarda bəzi xəritələr təqdim edilib, lakin həmin xəritələrin dəqiqliyi yalnız 25 faizdir. Beləliklə, bizim tələbimiz ondan ibarətdir ki, Ermənistan bizə dəqiq xəritələr təqdim etsin. Həmin xəritələrdə minalanmış ərazilər yox, - onsuz da onlar hər yerə mina basdırıblar, - minaların dəqiq yerləri göstərilsin. Belə xəritələr onlarda var. Bunu etsələr, xoş niyyət nümayiş etdirsələr, biz buna adekvat cavab verəcəyik.

**- Minsk qrupu vasitəçiliklə məşğuldur, ancaq kömək təklif edən digərləri də var. Məsələn, Avropa İttifaqı minaların təmizlənməsi və sərhədlərin delimitasiyasında yardım göstərməyi təklif edib. Bu məsələ tərəfinizdən nəzərdən keçirilirmi? Postmüharibə dövründə Avropa İttifaqı hər hansı bir rol oynaya bilərmi?**

- Bəli, biz bu təşəbbüsləri dəstəkləyirik. Bu mövzular bizim rəsmilər və Avropa İttifaqı nümayəndələri arasında çoxsaylı təmaslarda müzakirə edilir. Bundan əlavə, cari ilin yayında Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin Azərbaycana səfəri zamanı biz vəziyyəti geniş müzakirə etdik və fəal şəkildə çalışmaqla bağlı birgə niyyətimizi ifadə etdik. Avropa İttifaqı yenidənqurma və dinc mühitin yaradılması kimi müxtəlif sahələrdə təcrübəyə malikdir. Beləliklə, Avropa İttifaqı delimitasiya prosesində iştirak etmək və hər iki tərəfi razılığa gətirməklə bağlı niyyətini ifadə etdi və biz belə təşəbbüsləri dəstəkləyirik. Lakin bildiyimə görə, Ermənistan tərəddüd edir. Ermənistan Avropa İttifaqının təklifini qəbul edib-etməyəcəyi ilə bağlı qərar verməyib. Azərbaycanın mövqeyi isə olduqca açıqdır. Biz işləməyə hazırıq və müxtəlif səviyyəli dövlət rəsmilərimiz Avropa İttifaqı ilə təmasdadırlar. Avropa İttifaqı bizə delimitasiya, kommunikasiyaların açılması və postmüharibə dövründə inkişaf məsələlərində yardım edə bilər. Biz, həmçinin Avropa İttifaqı ilə iqtisadi yardım məsələsi ətrafında müzakirələr aparırıq. Bizə məlumdur ki, Avropa İttifaqı Ermənistan üçün 2.6 milyard avro həcmində iqtisadi yardım paketinin hazırlanması prosesindədir. Bu proses artıq başa çatmış da ola bilər. Əlbəttə, bizim gözləntimiz ondan ibarətdir ki, həmin həcmdə məbləğ eyni şərtlərlə Azərbaycana da təklif edilsin. İstər qrant, istərsə də kredit - burada bərabərlik olmalıdır. Çünki işğaldan əziyyət çəkmiş olan ölkə bizik. Bizim 10 min kvadratkilometr sahəyə malik olan, tamamilə dağıdılmış ərazimiz, yüzlərlə şəhər və kəndlərimiz var. Bu səbəbdən biz, əlbəttə ki, həmin iqtisadi yardım paketinin qeyri-balanslı olmasına dair öz narahatlığımızı ifadə etdik. Hazırda biz Avropa İttifaqı ilə təmaslarımızı davam etdiririk və onlardan bizə iqtisadi dəstəklə əlaqədar təklif gözləyirik. Avropa İttifaqı çox iş görə bilər. Biz bu imkanlardan istifadə etməyə hazırıq və Avropa İttifaqına dürüst vasitəçi kimi etibar edirik.

**- Mülki əhalinin işğaldan azad olunan ərazilərə nə zaman qayıda biləcəyini təxmin edirsiniz?**

- Əlbəttə, burada ilk maneə minalardır. Ərazilər minalardan təmizlənməyincə biz insanları geri qaytara, həyatlarını təhlükə altında qoya bilmərik. Dəfələrlə dediyim kimi, bu işdə bizim əsas rəqibimiz zamandır. Biz minalardan təmizləmə işini özümüz həyata keçiririk. Biz Minatəmizləmə Agentliyimizin heyətini artırmışıq. Bu prosesdə iştirak edən hərbçilərimizin də sayı artırılıb. Lakin bu, vaxt tələb edir. Bununla belə, minaları təmizlədiyimiz yerlərə gəldikdə, biz mülki əhali üçün artıq qəsəbələri, şəhərləri və kəndləri tikməyə başlamışıq. Birinci gördüyümüz iş tələbatların və infrastrukturun tam nəzərdən keçirilməsi oldu. Elektrik enerjisi infrastrukturu bu ilin sonuna, yəni bir neçə aydan sonra tam hazır olacaq. Eyni zamanda, yollara və su təchizatına aid olan məsələlər də vacibdir. Biz artıq bir neçə ay əvvəl pilot layihə olaraq kəndlərdən birinə sərmayə qoymağa başlamışıq və ola bilsin, bu ilin sonuna və ya gələn ilin əvvəlinə həmin kənd ilk sakinləri qəbul edə biləcək. Bu proses artıq gedir. Bütün şəhərlər üçün baş planlar hazırlayırıq. Sonra isə kəndlər üçün bunu edəcəyik. Azad olunmuş ərazilərin yenidən qurulmasına yalnız bu il üçün 1 milyard 300 milyon dollar həcmində vəsait ayırmışıq.

Beləliklə, bunun başlamasının dəqiq vaxtını söyləmək çətindir. Lakin proses mərhələli şəkildə başlayacaq. Qeyd etdiyim kimi, birinci mərhələ bir neçə ay davam edəcək.

**- Müharibə zamanı Türkiyə sizə dəstək verdi. Rusiya atəşkəs üçün vasitəçi kimi çıxış etdi və sülhməramlıları göndərdi. Fikrinizcə, müharibə regionda güclər balansını dəyişdimi?**

- Bəli, Türkiyə lap başlanğıcdan bizə dəstək verdi. Biz müharibənin ilk günlərindən verdiyi siyasi və mənəvi dəstəyə görə Türkiyə hökumətinə çox minnətdarıq. İndi isə, müharibə bitdikdən sonra Türkiyə, o cümlədən Rusiya gələcək regional inkişafda və sabitlikdə çox mühüm rol oynayırlar. Bildiyiniz kimi, Rusiya və Türkiyə Qarabağ bölgəsinin Ağdam rayonunda birgə monitorinq mərkəzini yaradıblar. Eyni zamanda, Rusiyanın sülhməramlıları erməni əhalinin yaşadığı yerlərdə sülhün mühafizəsi tədbirlərini görürlər. Beləliklə, artıq yeni reallıqlar yaranıb. Hər bir ölkə həmin reallıqları nəzərə almalıdır. Azərbaycan ilə Ermənistan arasında güclər balansı hələ xeyli il bundan əvvəl dəyişdi. Biz öz potensialımızı, Ermənistanın potensialını bilirdik. Ola bilsin, erməni hökuməti Azərbaycan qarşısında şanssız olduğunu, əraziləri dinc yolla boşaltmadığı təqdirdə ciddi çətinliklərlə üzləşəcəyini real şəkildə qiymətləndirə bilmədi. Düşünürəm ki, bu gün Türkiyə və Rusiya Azərbaycanın iki qonşusu kimi, - yeri gəlmişkən, onlardan biri Ermənistanın qonşusudur, - sabitlik, təhlükəsizlik və gələcək inkişaf sahəsində çox mühüm rol oynayırlar. Yəqin bilirsiniz, bu yaxınlarda iki ölkə prezidentlərinin görüşü oldu. Digər məsələlərlə yanaşı, onlar Ermənistanla Azərbaycan arasında vəziyyəti müzakirə etdilər. Biz hər iki ölkənin rolunu çox müsbət, sabitləşdirici rol kimi dəyərləndiririk. Fikrimcə, bu, yeni regional əməkdaşlıq düsturunun özəyini təşkil edir.

**- Elə mən də dəqiqliklə onu soruşmaq istəyirdim. Yəni, sabitlik, eləcə də Cənubi Qafqazın üç dövləti arasında və onların qonşuları - Türkiyə, Rusiya və İranla fəal regional əməkdaşlıq...**

- Bəli, biz "3+3" regional əməkdaşlıq platformasına dair Türkiyə Prezidentinin təklifini dəstəklədik. Ermənistan hələ ki cavab verməyib. Görürsünüz, Ermənistan yenə də qeyri-konstruktiv mövqe sərgiləyir. Lakin biz bu təklifi tam dəstəkləyirik. Bu, nəinki müharibədən sonrakı məsələlərə, eləcə də ümumiyyətlə, bizim bölgədə regional inkişafa xidmət edəcək. Çünki əgər biz regionun altı ölkəsi arasında bu cür əməkdaşlıq formatını yaratmağa müvəffəq olsaq, bu, hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq. Bu, regional əməkdaşlığın mühüm amilinə çevriləcək və çox fayda gətirəcək. Təkcə Azərbaycanın güclü təşviq etdiyi kommunikasiyaların açılması sayəsində biz region ölkələri arasında dərhal ticarət dövriyyəsini artıra, on minlərlə iş yeri aça bilərik. Bu, yalnız kommunikasiyaların açılması sayəsində olacaq. Bununla belə, qarşılıqlı ticarəti gücləndirsək, müsbət dinamikaya diqqət yetirsək, regionumuz gərginlik məkanından sabitlik və sülh regionuna çevriləcək.

**- Sonuncu sualım. Əməkdaşlıq haqqında danışdıqda, Azərbaycan ötən ilin sonunda Cənubi Avropa ölkələrinə təbii qazı nəql etməyə başlayıb. Hazırda Avropanın qaz bazarında ehtiyatda saxlanılan qazın həcmi çox aşağı düşüb. Qiymətlər isə sürətlə qalxır. Bu halda Sizin ixracı artırmaq niyyətiniz varmı? Avropaya əlavə nə qədər qaz nəql edə bilərsiniz?**

- Haqlısınız. Biz təbii qazımızı Avropaya ixrac etməyə ötən ilin son günü - dekabrın 31-də başladıq. Həmin vaxtdan etibarən ixracımızın profili artmaqdadır. Biz uzun illər, 15 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısıyıq və hər hansı fasilə olmayıb. İndi isə təbii qazın etibarlı təchizatçısı kimi biz öz rolumuzu oynayırıq. Bizim təbii qazın qiyməti digər mənbələrdən daxil olan qazdan ucuzdur. Bu qaz yeni mənbədən gəlir. "Cənub qaz dəhlizi"nin vacibliyi nəinki əlavə qaz həcmləri, o cümlədən alternativ mənbə olması ilə izah edilir. Bu, enerji təhlükəsizliyi məsələsidir. Biz Avropa istehlakçılarına göndərdiyimiz qazı artıq müqavilə əsasında satmışıq. Buna görə əgər Avropa istehlakçılarından əlavə tələbat olarsa, biz danışıqlara başlamalıyıq, çünki siz əvvəlcə qazı satmalısınız, sonra onu hasil etməlisiniz. Adətən qaz biznesində fəaliyyətin ardıcıllığı belədir.

Azərbaycanda təbii qazın təsdiq edilmiş ehtiyatları 2.6 trilyon kubmetrdir. Belə həcm öz istehlakımız və ixrac üçün ən azı 100 ilə kifayət edər. Hazırda yeni yataqların kəşf edilməsi mərhələsindəyik. Azərbaycanın neft və qaz sektoruna böyük enerji şirkətləri arasında maraq artır. Biz həcmi və hasilatı artıra bilərik, lakin bunun üçün hazırda danışıqlara başlamalıyıq və yeni müqavilələri imzalamalıyıq. Sonra isə daha çox hasilata sərmayə yatıracağıq.

**- Lakin bu qış üçün o, mümkün deyil, düzdür?**

- Texniki və kommersiya baxımından mümkün deyil. Cəmi bir və ya iki ay qalır. Lakin əgər indi başlasaq, fikrimcə, biz növbəti qış üçün hazır olacağıq. Həcmlərin artırılması üçün potensial var və üstəgəl, biz özümüz və xarici investorlar hazırda bərpa olunan enerjiyə sərmayə yatırırıq. Bu səbəbdən, özümüz istehlak etdiyimiz təbii qazı ixraca yönəldə biləcəyik, çünki bunu günəş və külək enerjisi ilə əvəz edəcəyik. Beləliklə, qeyd etdiyim kimi, bu halda potensial çox böyükdür. Boru kəməri istismar edilir. Gələcəkdə biz təchizatımızın coğrafiyasını Avropada Balkanlara və Şərqi Avropanın bir sıra digər ölkələrinə qədər genişləndirə bilərik. Bu, istehlakçılar və bizim üçün, o cümlədən şirkətlər və hər kəs üçün enerji təhlükəsizliyi baxımından yaxşı olardı.

**- Cənab Prezident, çox sağ olun. Çox təşəkkür edirəm.**

- Sağ olun, çox sağ olun. Sizə uğurlar arzu edirəm. Sağ olun.

# M.C.Mərdanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında və elmi-pedaqoji sahədə uzunmüddətli səmərəli fəaliyyətinə görə Misir Cumail oğlu Mərdanov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2021-ci il*

# DTX: "Dövlətə xəyanət edən şəxs ifşa olunaraq həbs edilib"

Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin vaxtında aşkarlanması və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks tədbirlər davam etdirilir.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikasının vətəndaşı 1970-ci il təvəllüdlü Zəkiyev Aydın Zəki oğlunun Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyətinin zərərinə casusluq edərək Ermənistan xüsusi xidmət orqanı nümayəndələrinə Azərbaycana qarşı düşmənçilik fəaliyyəti aparmaqda kömək göstərməklə dövlətə xəyanət etməsinə əsaslı şübhələr müəyyən olunub.

Həmçinin onun digər şəxslərin həmin xüsusi xidmət orqanı ilə məxfi əməkdaşlığa cəlb olunmasında vasitəçilik etməsi barədə tapşırıq aldığı təsbit olunaraq saxlanılmaqla cinayətkar əməllərinin qarşısı alınıb.

İstintaq zamanı məlum olub ki, Aydın Zəkiyev Ermənistan xüsusi xidmət orqanı nümayəndələri ilə məxfi əməkdaşlığa razılıq verdikdən sonra qarşılıqlı sövdələşməyə uyğun olaraq, üçüncü dövlətin ərazisində olan şəxslər vasitəsilə ötürülən tapşırıqları yerinə yetirməklə Azərbaycan Respublikası Silahlı Qüvvələrində şəxsi heyətin komplektləşdirilməsinin xüsusi halları ilə bağlı əldə etdiyi məlumatları düşmən tərəfə ötürüb, ölkədə etnik zəmində qarşıdurma yaratmağa hesablanmış və əvvəlcədən məqsədyönlü şəkildə hazırlanaraq xüsusi mətnlər şəklində göndərilən həqiqəti əks etdirməyən məlumatların yayılmasını təşkil etməkdə Ermənistan xüsusi xidmət orqanına kömək edib.

Aydın Zəkiyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi və digər cinayət faktlarına görə məsuliyyətə cəlb edilərək məhkəmənin qərarı ilə həbs edilib.

Hazırda həmin cinayət əməllərinə dair cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# İspandilli mətbuat Azərbaycan Prezidentinin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsini geniş işıqlandırır

Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi ispandilli KİV-in diqqət mərkəzindədir.







AZƏRTAC xəbər verir ki, İspaniyanın EFE informasiya agentliyi, İsveçrənin ictimai teleradio yayım korporasiyası beynəlxalq onlayn-platformasının (SRG SSR) ispandilli SWI swissinfo.ch versiyası, aparıcı xəbər portalları (eldiario.es, timepost.es, spain.shafaqna.com, andaluciainformacion.es) Prezident İlham Əliyevin müsahibəsi haqqında materiallar dərc edib, müsahibədən sitatlar gətiriblər.

"İlham Əliyev Ermənistan ilə sülh sazişi üzərində işləməyə hazırdır", "Azərbaycan Avropaya qaz tədarükü həcmini artırmağa hazırdır" sərlövhəli məqalələrdə oxucuların diqqətinə çatdırılır ki, Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük müharibədən sonra Ermənistan ilə "normal münasibətlər yaratmaq" və "sülh sazişi üzərində işləmək" üçün Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqlar masası arxasında əyləşməyə hazır olduğunu bildirib.

Azərbaycan dövlətinin başçısı EFE agentliyinə müsahibəsində deyib: "Bizim mövqeyimiz müharibə bitəndən sonra dəyişməz olaraq qalır. Biz Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istəyirik. Biz dərhal sərhədlərimizin delimitasiyasına və əlbəttə ki, bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırıq".

EFE agentliyi yazır ki, 2020-ci ilin sentyabr-noyabr aylarında Qarabağ ətrafında aparılmış müharibədə qalib gəlmiş ölkə olan Azərbaycanın Prezidenti Azərbaycan tərəfin bu təşəbbüslərini dəfələrlə xatırlatmasını, lakin təəssüf ki, hələlik Ermənistandan müsbət cavab almadığını bildirib.

İspandilli mətbuatda qeyd edilir ki, Azərbaycan dövlətinin başçısı müharibənin başa çatmasını və tarixin bu fəslinin bağlandığını, buna görə də Ermənistanın siyasi dairələri arasında hələ də eşidilən qisas və ya işğaldan azad edilən ərazilərin qaytarılması planları barədə bəyanatlara yer olmadığını vurğulayıb. Məqalələrdə Azərbaycan Prezidentinin müsahibəsindən bu sözlər sitat gətirilir: "Demək olar ki, 30 illik danışıqlar prosesi ərzində Azərbaycanın mövqeyi çox konstruktiv olmuşdur. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə verməyə hazır idik".

İspan mətbuatı yazır ki, Azərbaycan gələn il "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya əlavə qaz tədarük edilməsi barədə danışıqlar aparmağa hazırdır.

Prezident İlham Əliyev deyib: "Biz təbii qazımızı Avropaya ixrac etməyə 2020-ci il dekabrın 31-də başladıq. Həmin vaxtdan etibarən ixracımızın profili artmaqdadır. Biz uzun illər, 15 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısıyıq və hər hansı fasilə olmayıb. İndi isə təbii qazın etibarlı təchizatçısı kimi biz öz rolumuzu oynayırıq".

# Müdafiə Nazirliyində xidməti müşavirə

Oktyabrın 2-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmələrin komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdıran müdafiə naziri Azərbaycan Ordusunda qoşunların hazırlığına xüsusi diqqət yetirilməsi barədə müvafiq göstərişlər verib.

Müşavirədə dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyət təhlil edilib.

Şəxsi heyətin döyüş hazırlığı və ayıq-sayıqlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə nazir bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin praktiki məşq etdirilməsi, döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Şəxsi heyətə təhlükəsizlik qaydalarının çatdırılması və onlara əməl olunmasına ciddi nəzarət edilməsinin vacibliyi xüsusi vurğulanıb.

General-polkovnik Zakir Həsənov azad edilən ərazilərdəki bölmələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun yaradılması, dağ yollarının çəkilməsi və onların daim işlək vəziyyətdə saxlanılması, bölmələrin qışa hazırlıq işlərinin tamamlanması, xüsusilə dağlıq ərazilərdə xidmət edən bölmələrə lazımi ehtiyatların vaxtında çatdırılması məsələlərinin diqqətdə saxlanılması ilə bağlı müvafiq göstərişlər verib.

Nazir Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandanın müvafiq sərəncamına əsasən elektron qaydada bölgüsü aparılan çağırışçıların müvafiq bölmələrdə yerləşdirilməsi, eyni zamanda, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması işlərinin mütəşəkkil qaydada icra olunması barədə aidiyyəti şəxslərə tapşırıqlar verib.

# İdarələrarası Mərkəzin "Elm, təhsil və mədəniyyət məsələləri üzrə" İşçi Qrupunun iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Elm, təhsil və mədəniyyət məsələləri üzrə" İşçi Qrupunun növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, işçi qrupda təmsil olunan Prezident Administrasiyasının, Mədəniyyət, Təhsil nazirliklərinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Əqli Mülkiyyət və Dövlət Turizm agentliklərinin, Qarabağ Dirçəliş Fondunun və AMEA nümayəndələrinin də iştirak etdikləri iclasda işğaldan azad edilmiş torpaqlarda mədəni irsin qorunması, bərpası və təbliği, son arxeoloji araşdırmalar, elmi görüşlərin nəticələri və gələcək perspektivləri haqqında məlumatlar, təhsil infrastrukturu, icraatda olan işlərin ilkin nəticələri, İşğal və Zəfər muzeylərinin layihələndirilməsi, turizm imkanlarının perspektivləri barədə müzakirələr aparılıb, qarşıda duran məsələlərlə bağlı aidiyyəti dövlət qurumlarına tapşırıqlar verilib.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi istiqamətində müvafiq işlər aparılır

## İdarələrarası Mərkəzin "İqtisadi məsələlər üzrə" İşçi Qrupunun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə əlaqədar yaradılmış Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "İqtisadi Məsələlər" üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, videoformatda keçirilən iclasda "İqtisadi Məsələlər üzrə" İşçi Qrupunda təmsil olunan Prezident Administrasiyası, İqtisadiyyat, Maliyyə, Energetika və Kənd Təsərrüfatı nazirliklərinin, Mərkəzi Bank, Dövlət Turizm Agentliyi, Qarabağ Dirçəliş Fondu, İpoteka və Kredit Zəmanət Fondunun nümayəndələri iştirak ediblər.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi və müqayisəli üstünlük sahələrinin müəyyən edilməsi istiqamətində AMEA-nın İqtisadiyyat İnstitutu və "Boston Consulting Group" məsləhətçi şirkəti ilə birgə müvafiq işlər aparılır. Hazırlanmış Strateji təhlil sənədi çərçivəsində işğaldan azad edilmiş ərazilərdə zəruri infrastrukturun yaradılması, iqtisadi canlanmanın formalaşdırılması, iqtisadi artım prioritetlərinin, xüsusilə əhalinin bölgəyə qayıdışı ilə bağlı onların məşğulluq imkanlarının şirkət tərəfindən hazırlanmış tarazlıq modeli əsasında proqnozlaşdırılması istiqamətində tədqiqatlar aparılır.

İşğaldan azad edilmiş ərazilərdə aparılan ilkin inventarlaşmanın bütün məlumatları Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə daxil edilib. Belə ki, 14618 daşınmaz əmlakın (11685 ədəd tikili və 2933 ədəd infrastruktur obyekti) çöl inventarlaşdırma işləri tamamlanıb.

Hazırda 20 dövlət qurumunun və təşkilatının Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə qoşulması təmin edilib, onlara sistemdə işləməklə bağlı təlimlər keçirilib, artıq 15 qurum tərəfindən məlumatların sistemə daxil edilməsinə başlanılıb.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı 791 müraciət daxil olub. İnvestisiya layihələrinin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir.

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi məlumat verib ki, işğaldan azad edilmiş ərazilərdə 14347 hektar sahədə şumlama işləri aparılıb. Həmin ərazilərdə əsasən taxıl əkini planlaşdırılır. Laçın yaylaqlarına qaldırılmış 16 arıçı sahibkara məxsus 531 arı ailəsi, Kəlbəcər rayonu üzrə 53 arıçıya məxsus 2937 arı ailəsi də qışlaqlara köçürülüb. Həmçinin cari ildə Füzuli rayonunun 288.8 hektar ərazisində şəkər çuğunduru əkilib və həmin torpaqların 78,8 hektarı işğaldan azad edilmiş əraziləri əhatə edir. Füzuli rayonunun işğaldan azad edilmiş Seyidmahmudlu kəndi ərazisindəki minalardan təmizlənmiş həmin torpaqlarda şəkər çuğunduru ilk dəfədir becərilir və yüksək məhsuldarlığa nail olunub. Belə ki, şəkərlilik faizi 15-16 faiz göstərici ilə hər hektardan 55-60 ton məhsul yığılıb və bugünə kimi 1800 tona yaxın məhsul tədarük edilib.

Dövlət Turizm Agentliyinin nümayəndəsi qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə mehmanxana təsərrüfatı və turizm fəaliyyətlərinin təşkili sahəsində 11 investisiya layihəsinin ilkin qiymətləndirilməsi aparılıb.

Hadrut qəsəbəsinin sosial-iqtisadi inkişafının turizm aspektindən qiymətləndirilməsi ilə bağlı hesabat hazırlanıb, turizm potensialının qiymətləndirilməsi istiqamətində Kəlbəcər rayonuna səfər təşkil olunub və səfər çərçivəsində Kəlbəcərin turizm potensialı ilə bağlı ilkin qiymətləndirmə həyata keçirilib.

Təqdim olunan hesabatlar işçi qrupun üzvləri tərəfindən geniş müzakirə edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Vətən müharibəsi şəhidi Muxtar Qasımlının xatirəsi anılıb

Oktyabrın 2-də Vətən müharibəsi şəhidi Muxtar Qasımlının xatirəsinin anım mərasimi keçirilib.









AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun böyük şücaət və qəhrəmanlıq göstərərək torpaqlarımızı işğaldan azad etdiyini bildirib: "Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri, o cümlədən şəhid Muxtar Qasımlı və onun döyüş yoldaşları Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində böyük şücaət göstərərək, tarixi qələbə qazanmaqla bizi 30 illik həsrətdən sonra əzəli torpaqlarımıza qovuşdurdular. Məhz onların qəhrəmanlığı, döyüş əzmi, mərdliyi nəticəsində torpaqlarımız düşmən işğalından azad olundu. Vətən müharibəsində Azərbaycan istər döyüş meydanında, istərsə də diplomatiya sahəsində öz sözünü dedi və düşməni məğlub edərək kapitulyasiya aktını imzalamağa məcbur etdi".

Adil Əliyev şəhid Muxtar Qasımlının Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərdiyini vurğulayıb: "Azərbaycanın işğal altındakı ərazilərinin azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Muxtar Qasımlı Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Biz Vətən müharibəsindəki şanlı Qələbəmizə görə şəhidlərə borcluyuq. Şəhidlərimizin şücaəti xalqımız tərəfindən çox yüksək qiymətləndirilir və onların xatirələri hər zaman qəlbimizdə yaşayacaq".

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov qeyd edib ki, Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm Qələbə bütün dünyada əks-səda yaratdı. Bu Qələbənin əsasında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi qüdrətli dövlət, güclü ordu quruculuğu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi idi. Gənclərimiz mənfur düşməni torpaqlarımızdan qovmaq üçün son damla qanına qədər vuruşaraq böyük rəşadət nümayiş etdirdilər. Xalqımız var olduqca şəhidlərin əziz xatirəsi də yaşayacaq.

Şəhid general-mayor Polad Həşimovun anası Səmayə Həşimova mərasimdə çıxış edərək bildirib ki, Ana Vətənimizi qoruyan, uğrunda canından-qanından keçən igid oğul və qızlarımızın xatirəsini yad etmək hər bir azərbaycanlının müqəddəs borcudur. Ən uca və müqəddəs zirvəni - şəhidlik zirvəsini fəth edənlərin xatirəsi hər bir azərbaycanlının qəlbində daim yaşayacaq.

Muxtar Qasımlının atası Əli Qasımlı sentyabrın 27-də işğalçı Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun əks-həmlə əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində qazanılan parlaq Qələbənin xalqımızı sonsuz sevinc və qürur hissi yaşatdığını bildirib. Şəhid atası bu tarixi qələbədə oğlu Muxtarın da payının olması ilə qürur duyduğunu qeyd edib.



Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, din xadimi hacı Şahin Həsənli, Xalq artisti Nurəddin Mehdixanlı, Vətən müharibəsi qaziləri və başqaları müzəffər Ordumuzun mənfur düşməni ağır məğlubiyyətə uğradaraq xalqımıza bəxş etdiyi tarixi Qələbənin əhəmiyyətindən, Muxtar Qasımlının döyüş yolundan danışıblar.

Şəhid Muxtar Qasımlının təhsil aldığı 318 nömrəli tam orta məktəbin şagirdləri tərəfindən ədəbi-bədii kompozisiyanın təqdim olunmasından sonra onun qısa, lakin şərəfli həyatı, onun döyüş yoluna və idman karyerasına dair videoçarx nümayiş etdirilib.

Sonra ehsan süfrəsi açılıb və şəhidin məzarı ziyarət olunub.

Qeyd edək ki, 1993-cü il fevralın 23-də Bakıda anadan olan Muxtar Qasımlı orta təhsilini 318 nömrəli tam orta məktəbdə alıb. O, 2009-2013-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Kikboksinq fakültəsində bakalavr təhsili alıb.

Muxtar 2013-cü ildə həqiqi hərbi xidmətə çağırılıb və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabit kursunu bitirib. 2014-cü ildə ordu sıralarından ehtiyata buraxılıb.

Kiçik yaşlarından döyüş idman növləri ilə məşğul olan Muxtar dəfələrlə yarışlarda iştirak edərək bir sıra mükafatlara layiq görülüb. O, 2019-cu ildə fitnes üzrə Azərbaycan çempionu adına layiq görülüb və fitnes müəllimi kimi gənclərin fiziki tərbiyəsi ilə məşğul olub.

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Muxtar 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində doğma Vətənin müdafiəsinə ilk yollanan qəhrəmanlardan olub. Füzuli uğrunda gedən döyüşlərdə iştirak edən Muxtar Qasımlı oktyabrın 2-də şəhidlik zirvəsinə ucalıb.

Muxtar Qasımlı Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# BMT sessiyasında Azərbaycan hökumətinin dördüncü dövri məruzəsi təqdim olunub

2021-ci il 30 sentyabr-1 oktyabr tarixlərində BMT-nin İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsinin Cenevrə şəhərində keçirilən 70-ci sessiyası çərçivəsində "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt" üzrə Azərbaycan Respublikası hökumətinin dördüncü dövri məruzəsinin virtual formatda təqdimatı keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycanı xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərliyi ilə hökumət nümayəndə heyəti təmsil edib.

Nümayəndə heyətinə Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri daxil olublar.

Təqdimat zamanı açılış nitqi ilə çıxış edən X.Xələfov Azərbaycanın insan hüquqlarının müdafiəsi və təşviqi sahəsində əsas beynəlxalq sənədlərə tərəf olduğunu və bu xüsusda BMT-nin insan hüquqları sahəsində müvafiq müqavilə qurumları ilə əməkdaşlığa böyük önəm verdiyini qeyd edib.

Çıxışında X.Xələfov COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycan hökumətinin həyata keçirdiyi və təşəbbüskarı olduğu tədbirlər barədə məlumat verib. Nazir müavini 2013-2018-ci illəri əhatə edən dördüncü dövri məruzədə əksini tapmış, eləcə də hazırkı dövrədək ölkədə qəbul edilən əhəmiyyətli tədbirlərə yönəlmiş iqtisadi, sosial və mədəni hüquqların təmin olunması üçün mövcud hüquqi baza və dayanıqlı inkişaf sahəsində atılan praktiki addımlar barədə müfəssəl məruzə edib.

Dördüncü dövri məruzə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının BMT-nin insan hüquqları sahəsində müqavilə qurumları qarşısında təqdim etdiyi ilk hesabat olub.

X.Xələfov regionun iqtisadi, sosial və mədəni inkişafına əsas maneə olan Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 illik işğalına 44 günlük Vətən müharibəsi nəticəsində son qoyulduqdan sonra regionun və burada yaşayan insanların rifahının daha da yaxşılaşdırılması və əməkdaşlıq üçün yeni reallıqların yarandığını vurğulayıb. Bu, bir milyona yaxın qaçqın və məcburi köçkünün təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtması üçün imkan yaradıb. Bu qayıdış qaçqınların və məcburi köçkünlərin pozulmuş haqlarının bərpa edilməsinə və müdafiəsinə böyük töhfədir.

Nümayəndə heyəti rəhbərinin təqdimatından sonra Beynəlxalq Paktın 1-15-ci maddələrini əhatə edən 4 bölmə üzrə konstruktiv və qarşılıqlı anlaşma şəraitində interaktiv dialoq aparılıb. İnteraktiv dialoq zamanı çıxış edən BMT-nin müvafiq Komitəsinin üzvləri tərəfindən səsləndirilən sahəvi sualları Azərbaycanın aidiyyəti dövlət qurumlarının səlahiyyətli nümayəndələri geniş cavablandırıblar.

On səkkiz dövlətin nümayəndəsinin daxil olduğu BMT-nin İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsi cari il oktyabrın 15-dək Dövri məruzə və interaktiv dialoqa dair öz tövsiyələrini Azərbaycan hökumətinə təqdim edəcək.

AZƏRBAYCAN www.azerbaijan-news.az





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

Zəfərin izi ilə

# "Dəmir yumruğ"un SUQOVUŞAN zərbəsi

## Bir il öncə azad edilən Suqovuşan indi sürətlə dirçəlir, yenidən qurulur

Əvvəli 1-ci səh.

Onlar tikdikləri zavodda yetişdirilən balıq və istehsal edilən qara kürünü xarici ölkələrə ixrac etməyi planlaşdırırdılar.

Suqovuşanda yerləşən hərbi hissə Ermənistan ordusunun Qarabağdakı ən güclü, hazırlıqlı birləşmələrindən biri hesab olunurdu.

Düz bir il əvvəl rəşadətli ordumuz Tərtərin Talış kəndi, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, Füzulinin Aşağı Əbdürrəhmanlı kəndləri ilə yanaşı, Suqovuşanı da erməni əsarətindən xilas edib.

Azərbaycan Prezidenti İlham Əliyev Suqovuşan əməliyyatına xüsusi diqqət yetirdiyi üçün müharibədən sonra bu əməliyyatda iştirak edən hərbi qulluqçuları da xüsusi olaraq mükafatlandırıb. Prezident İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında sərəncamına uyğun olaraq, Suqovuşan kəndinin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik nümunəsi göstərmiş 3500-dən çox hərbi qulluqçu adıçəkilən medala layiq görülüb.

Dövlət başçısının bu il iyunun 24-də imzaladığı sərəncama əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 mindən çox hərbi qulluqçusu "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

### Suqovuşan döyüşü Azərbaycanın şimal istiqamətdə irəliləməsində mühüm rol oynadı

Suqovuşan Azərbaycan Ordusu üçün çox strateji əhəmiyyətə malik ərazilərdən idi. Uğurlu Suqovuşan döyüşü Silahlı Qüvvələrimizin şimal istiqamətində irəliləməsi baxımından mühüm rol oynayıb. Suqovuşanın azad edilməsi ilə Ağdərə və Ağdamı birləşdirən əsas təminat yolu Azərbaycan nəzarətinə keçib, düşmənin buradan Tərtər rayonuna zərbələr endirməsinə son qoyulub. Olduqca gərgin keçən bu döyüşdə Ermənistan ordusu xeyli canlı qüvvə və texnika itirib.

Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov deyir ki, Suqovuşanın işğaldan azad edilməsi Azərbaycana strateji baxımdan üstünlük verməklə yanaşı, hərbi əməliyyatların uğurla davam etdirilməsi üçün də əlverişli imkan yaradıb. Bu yaşayış məntəqəsinə nəzarət həmin istiqamətdə irəliləmək, başqa istiqamətlərə zərbə endirmək imkanlarını olduqca genişləndirirdi: "Suqovuşan həmin dağlıq bölgədə nəzarət altına alınan ilk yaşayış məntəqəsi idi. Suqovuşanın azad edilməsi Ağdərəyə gedən yola nəzarətin təmin edilməsi demək idi. Bu yaşayış məntəqəsinin azad edilməsi Ağdərəyə gedən yolu demək olar ki, tam şəkildə bağladı".

Ekspert bildirir ki, Suqovuşanın işğaldan qurtulması qarşı tərəfin hərbi imkanlarını məhdudlaşdırdı. Suqovuşan o istiqamətdə olan erməni qüvvələrinin idarə məntəqəsi olduğundan həmin ərazinin işğaldan azad edilməsi düşməni çox çıxılmaz vəziyyətə saldı. Uğurlu Suqovuşan əməliyyatı düşmənin öz qüvvələrini oradan çıxararaq başqa yerə apara bilməsinə imkan vermədi. Digər tərəfdən, Suqovuşandakı yüksəkliklərin hamısı strateji baxımdan çox əhəmiyyətli olduğundan bu yaşayış məntəqəsinin azad edilməsi Azərbaycan Ordusuna ətrafdakı əraziləri nəzarətdə saxlamaq imkanı verdi.

Ş.Ramaldanov əlavə edir ki, Azərbaycan müharibədən əvvəl digər istiqamətlərlə yanaşı, Suqovuşan üzrə də irimiqyaslı təlimlər keçib. Elə təlimlər zamanı döyüşlər üçün bütün hesablamalar dəqiqliklə aparılıb. Bu isə müharibədə bütün istiqamətlər üzrə hərbi planları çox asanlıqla icra etməyə imkan verib.

Milli Məclisin deputatı Sahib Alıyevin sözlərinə görə, Suqovuşan işğalçının 4 əsas möhkəmləndirilmiş hərbi-strateji əhəmiyyətli dayaq məntəqələrindən biri idi. 2016-cı ilin Aprel döyüşlərinin getdiyi əsas yerlərdən biri də məhz Suqovuşan olduğundan son dörd ildə düşmən orada mövqelərini daha da möhkəmlətmişdi. Ermənistan onlara havadarlıq edənlərin mütəxəssislərini də cəlb etməklə Suqovuşandakı mühəndis-istehkam qurğularını daha da təkmilləşdirmiş, yeni vizual izləmə sistemi, radioelektron kəşfiyyat vasitələri, zenit raket kompleksi, başqa hərbi texnikalar yerləşdirməklə buranı bir növ alınmaz qalaya çevirmişdi: "Yeri gəlmişkən, zamanında Sərsəng su anbarıyla Suqovuşanı da düşmən özü təkcə deyil, xarici desantçıların gücüylə işğal etmişdi. Bu mənada Suqovuşanın azad edilməsi təkcə düşmənə deyil, ona havadarlıq edənlərə də ağır dərs oldu. Məhz Suqovuşanın azad edilməsi ardınca Horadiz dəhlizinin açılması nəticəsində Azərbaycan Ordusunun qarşısının kəsilməsi artıq tam mümkünsüzləşdi. Suqovuşanın azad edilməsinin hərbi-strateji önəmi məhz bunda idi".

### Ekoloji terror da aradan qaldırıldı

Suqovuşanın işğal edilməsi 1976-cı ildə istismara verilmiş eyniadlı su anbarının da ermənilərin əlinə keçməsinə səbəb olmuşdu.














Bu isə Azərbaycanın su təchizatı imkanlarının məhdudlaşdırılması, ölkəmizin ekoloji terrorla üzləşməsi ilə nəticələnmişdi. Tərtərçay və Turaqaçay çaylarından daxil olan sular hesabına formalaşan, ümumi həcmi 5,86 milyon kubmetr olan su anbarından Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam, Ağcabədi rayonlarının ümumilikdə 96 min 217 hektar (ha) olan torpaq sahələrinin suvarma suyu ilə təmin olunması nəzərdə tutulub.

Lakin işğal amili Tərtər rayonunun 24 481 ha, Ağdərə rayonunun 14380 ha, Goranboy rayonunun 6 938 ha, Yevlax rayonunun 5 912 ha, Bərdə rayonunun 12 620 ha, Ağdam rayonunun 29 886 ha və Ağcabədi rayonunun 2 000 ha torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı. Suqovuşan su anbarının uzun illər işğal altında olması səbəbindən alternativ mənbə kimi subartezian quyularından istifadə edilib.

Azərbaycanın əkin sahələrinin Suqovuşan su anbarının suyu ilə suvarılmasına imkan verməyən Ermənistan üçün bu anbar həm də ekoloji terror silahı olub. Bunu Prezident İlham Əliyev bu ilin aprelində Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılovu qəbul edərkən də xatırladıb: "Onlar bizi sudan məhrum etmişdilər. Sərsəng su anbarı və Suqovuşan su anbarı onların nəzarətində idi. Bu iki su anbarını 1970-ci illərdə Ulu Öndər Heydər Əliyev tikdirmişdi ki, Ağdam, Tərtər, Goranboy, Bərdə və digər rayonlarımızda suvarma işləri aparılsın. Ancaq ermənilər suyumuzu kəsirdilər, qışda ekoloji ziyan vurmaq üçün qəsdən buraxırdılar, yaz-yay aylarında suyu kəsirdilər, biz susuz qalmışdıq. Biz o bölgənin suvarılması ilə bağlı xüsusi tədbirlər planı hazırlamışdıq və mənim göstərişimlə orada yüzlərlə subartezian quyusu qazılmışdır. Ancaq biz Suqovuşan qəsəbəsini azad edərkən Suqovuşan su anbarını da nəzarətimizə götürdük. Suqovuşan nəzarətimizə keçəndən sonra imkan yaranıb ki, dediyim Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızda su təminatı böyük dərəcədə yaxşılaşsın".

Prezident elə həmin görüşdə o rayonlara gedən kanalların uzun illər ərzində istifadəsiz qaldığını xatırladaraq vətəndaşların su ilə qısa zaman ərzində təmin oluna bilməsi üçün işlərin görülməsini də zəruri sayıb: "Təhlil aparılmalıdır, onların vəziyyəti nə yerdədir. Təmirə ehtiyac varsa, bu işlərə də baxılmalıdır ki, biz vaxt itirmədən suyu sahə başına, vətəndaşlarımızın sərəncamına gətirək".

Suqovuşanın işğaldan azad edilməsi ekoloji problemləri aradan qaldırmaqla yanaşı, uzun illərdən bəri su təminatı çətin olan bu ərazilərə suyun verilməsinə, burada gələcəkdə əkinlərin davamlı aparılmasına təminat verəcək. Su qıtlığının aradan qaldırılması kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə imkan yaradacaq.

Meliorasiya və Su Təsərrüfatı Səhmdar Cəmiyyətindən sorğumuza verilən cavabda bildirilib ki, ərazisi minalardan və digər partlamamış sursatlardan təmizlənən Suqovuşan su anbarında artıq təmir-bərpa işlərinə başlanılıb. Bu işlərin ilin sonuna qədər yekunlaşdırılması nəzərdə tutulur. Təmir-bərpa nəticəsində ümumilikdə 96 min 200 hektar əkin sahəsinin su təminatı yaxşılaşacaq. Bununla yanaşı, Suqovuşan hidroqovşağının və ondan su götürən uzunluğu 5,2 km olan magistral beton kanalın layihə sənədləri Fövqəladə Hallar Nazirliyi tərəfindən ekspertiza olunur. Tərtərçay Sol Sahil kanallarının təmir və yenidən qurulması üçün texniki iqtisadi əsaslandırılma və layihə sənədləri hazırlanaraq aidiyyəti təşkilatlara təqdim olunub.

Deputat Sahib Alıyev Suqovuşanın azad edilməsi ilə ermənilərin əlindən ekoloji terror silahının çıxdığını söyləyir: "Suqovuşan su qovşağı olmasına baxmayaraq, 30 ilə yaxın işğalçının və onun yaratdığı qondarma separatçı rejimin əlində ekoloji terror silahına çevrilmişdi. Yayda Tərtərdə və ətraf rayonlarda suya böyük ehtiyac yaranan vaxt Qarabağdakı qondarma rejim oradan bir damla belə çıxmağa qoymur, payızda və qışda isə çoxlu miqdarda su buraxmaqla daşqınlar yaradırdı. Suqovuşanın azad edilməsiylə bu ekoloji terror silahı düşmənin əlindən çıxmış oldu".

### Suqovuşan turizm məkanına çevriləcək

Suqovuşan həm də Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli ərazilərdəndir. Erməni işğalı Azərbaycanın Suqovuşanda yerləşən, enerji təchizatında əhəmiyyətli rol oynayan, ümumi gücü 7,8 MVt olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarından da istifadə imkanlarını əlindən almışdı. Lakin işğaldan azad edildikdən sonra həmin stansiyaların əsaslı təmirə ehtiyacının olduğu üzə çıxdı. Ərazini işğal etməklə kifayətlənməyən erməni qəsbkarları Suqovuşandakı 4, 8 və 3 MVt gücündə olan kiçik elektrik stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşıyıblar, apara bilmədiklərini isə dağıdıblar. Döyüşlər zamanı stansiyalara ciddi ziyan dəydiyindən bu SES-lərin təmirinə ehtiyac yaranmışdı.

Bu ilin yanvar ayından stansiyada sazlanma işlərinə başlanılıb və iyunun əvvəlindən "Suqovuşan - 1" və "Suqovuşan - 2" stansiyaları istismara verilib.

Lakin Suqovuşanın Azərbaycan iqtisadiyyatı üçün verə biləcəyi töhfə bundan ibarət deyil. Əsasən dərin yarğanlarla kəsilmiş yüksək, seyrək meşəlik çəmənliklərdən ibarət olan kəndin ərazisindən Tərtər çayının axması buranı turizm baxımından olduqca cəlbedici edir. Suqovuşanın turizm məkanlarından birinə çevrilməsi Azərbaycanın gələcək hədəflərindəndir.

Azərbaycan Prezidenti İlham Əliyev artıq Suqovuşanın turizm potensialının inkişaf etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verib. Azərbaycan Televiziyasına bu ilin iyul ayında müsahibə verən dövlət başçısı Suqovuşanın turistlər üçün maraqlı olacağını söyləyib: "İkinci Qarabağ müharibəsində Suqovuşan qəsəbəsi də işğaldan azad edildi və Naftalandan Suqovuşan qəsəbəsinə məsafə o qədər də böyük deyil. Mənim tapşırığımla yeni yolun çəkilişi də təmin edilir və beləliklə, bu zona vahid bir turizm məkanı olacaq. Şiddətli döyüşlər gedən əraziyə gedib baxmaq həm turistlər üçün maraqlı olar, həm də ki, Suqovuşan çox mənzərəli bir yerdir. Naftalana gələn qonaqların, - istər Azərbaycan vətəndaşları, istərsə də xarici qonaqlar olsun, - ölkəmizlə tanış olmaları üçün gərək daha geniş imkanlar olsun".







### Qədim Alban məbədi - Müqəddəs Yelisey monastırı da azad olundu

İşğal dövründə ermənilər Suqovuşanın yalnız iqtisadi imkanlarından faydalanmağa çalışmayıblar. Onlar buradakı dəyərli abidələri də erməniləşdirməyə cəhd göstəriblər.

Azərbaycanın ən qədim tarixə malik olan ərazilərindən olan Suqovuşan qədim Alban dövlətinin izlərini yaşadan məkanlardandır. Tərtər rayonunun Suqovuşan və Təpəkənd kəndləri arasında yerləşən, tarixi-memarlıq abidəsi olan Müqəddəs Yelisey kompleksinə daxil olan ilk tikililərin inşası Qafqaz Albaniyasının Arşakilər sülaləsindən olan hökmdar III Mömin Vaçaqanın adı ilə bağlıdır. Albaniyanın qüdrətli hökmdarı Cavanşirin sifarişi ilə "Alban ölkəsinin tarixi"ni yazan tarixçi-salnaməçi Moisey Kalankatlı da bu əsərində monastır haqqında məlumat verir.

Azərbaycan SSR Elmlər Akademiyasının 1970-ci ildə Müqəddəs Yelisey monastırında apardığı ekspedisiyaya rəhbərlik edən arxeoloq Rəşid Göyüşov yazırdı ki, bu məbəd Albaniyada xristianlığın ilk təbliğatçısı Yeliseyin şərəfinə tikilib, alban çarı mömin Vaçaqan burada dəfn edilib. Aparılan tədqiqatlar göstərdi ki, məbəd IX-X əsrlərdə dağıdılıb. XI əsrdə burada dağıntılar üzərində yeni monastır kompleksi inşa olunub.

Ermənilər işğal dövründə məhz Vaçaqanın qəbrini hədəf götürməklə Müqəddəs Yelisey kompleksini də siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstəriblər. Uzun illər işğal altında olan Müqəddəs Yelisey monastırını erməniləşdirməyə səy göstərən düşmən bu niyyətinə nail ola bilməyib. Vətən müharibəsində işğaldan azad olunan torpaqlarımız, o cümlədən bir çox tarixi-dini tikililərimiz kimi, Azərbaycan dövləti bu monastırı da əsaslı şəkildə bərpa edəcək.

### Suqovuşan tarixi adının qaytarılması Azərbaycanın ədalətə qovuşacağının rəmzi ifadəsi idi

Azərbaycan tarixinin izlərini tam silməyə çalışan ermənilər Qərbi Azərbaycanda və Qarabağda təxminən 700-dən çox toponimi saxtalaşdıraraq onları süni şəkildə erməniləşdiriblər. Həmin yer adlarının 200-dən çoxu Qarabağ ərazisindədir. Erməniləşdirilmiş adların sırasında yalnız yaşayış məntəqələrinin deyil, dağ, dərə, bulaq və s. adları da var. Erməniləşdirilmiş adlardan biri də Madagiz olub.

Milli Məclis yanında Toponomiya Komissiyasının sədri, deputat, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin sözlərinə görə, son zamanlar alimlər Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin tarixi torpaqlarımızdakı Azərbaycan toponimlərinin dəyişdirilməsi haqqında verdiyi qərarları üzə çıxarıblar. Məlum olub ki, bəzən bir iclasda verilən qərarla bir neçə kəndin adının dəyişdirilməsinə qərar verilib.

Ermənilərin toponimlərimizə qarşı terror həyata keçirdiyini vurğulayan akademik bildirir ki, müharibənin yeni başlandığı dövrdə Qarabağdan axan bir neçə çayın qovuşduğu əraziyə Suqovuşan adının verilməsi Azərbaycanın öz ədalətinə qovuşacağının rəmzi ifadəsi idi. Bu, müharibənin qələbə ilə başa çatacağının işarəsi idi: "Həqiqətən də, bu döyüşdən sonra Azərbaycan Ordusu hər gün yeni əraziləri işğaldan azad edərək bizi böyük qələbəyə çatdırdı. Suqovuşan eyni zamanda Qarabağın yeni həyata qovuşmasını da səciyyələndirirdi".

Akademik qeyd edir ki, hələ müharibə dövründə Prezident İlham Əliyev tərəfindən bir neçə toponimin dəyişdirilməsi təklif edildi. Bu təklifə uyğun olaraq, Toponomiya Komissiyası Madagiz də daxil olmaqla, bir neçə adın dəyişdirilməsi haqqında qərar qəbul etdi. Lakin hazırkı mərhələdə azad edilmiş ərazilərdə minalardan təmizlənmə işləri başa çatmadığından erməniləşdirilmiş digər toponimlərin, ərazilərin coğrafi xüsusiyyətlərinin öyrənilməsi məsələsində çətinliklər yaranır. Hazırda isə Qarabağdakı erməniləşdirilmiş toponimlərin yaxın gələcəkdə müzakirə olunması üçün elmi cəhətdən hazırlıq işləri aparılır.

Minalardan təmizlənmə işləri başa çatandan, əhali həmin ərazilərə köçürüləndən sonra həm xalq yaddaşı, həm xəritələr, həm də yerli toponimlərin coğrafi şəraitinin öyrənilməsi əsasında erməniləşdirilmiş toponimlərin milliləşdirilməsi istiqamətində işlər davam etdiriləcək. Hazırda bu istiqamətdə elmi cəhətdən hazırlıq işləri aparılır. Tarixi torpaqlarımızda toponimlərimizin süni şəkildə erməniləşdirilməsinin aradan qaldırılması məqsədilə Ermənistanda dəyişdirilmiş Azərbaycan toponimləri ilə bağlı vaxtilə akademik Budaq Budaqov və tarix elmləri doktoru Qiyasəddin Qeybullayevin hazırladığı kitab təkrar çapa hazırlanır.

### Suqovuşanın yaratdığı reallıqlar

2020-ci il oktyabrın 3-də öz kökünə qayıdan, tarixin ədalətinə qovuşan Suqovuşan Azərbaycan Ordusunun qazandığı strateji əhəmiyyətli ilk qələbələrdən idi. Lakin 44 günlük müharibənin Zəfər yolu hələ bundan sonra 37 gün də davam edəcək.

Ali Baş Komandan İlham Əliyevin cızdığı zəfərin izi ilə gedən Azərbaycan əsgəri alınmaz Şuşa qalasının sədlərini də inanılmaz cəsarəti ilə adlayıb keçərək Azərbaycan xalqını illərlə həsrət qaldığı möhtəşəm qələbəyə qovuşduracaq. Bu qələbə sayəsində 10 Noyabr təqvimizə vüqarla, qürurla qeyd edə biləcəyimiz Zəfər Günü kimi daxil edildi.

Azərbaycan bu zəfəri daha tez - əvvəlki illərdə də əldə edə bilərdi. Lakin müharibə üçün tələsməyən Azərbaycan lazım gələrsə, torpaqlarını hərb yolu ilə işğaldan azad edə biləcəyini dəfələrlə xatırlatmışdı. Prezident İlham Əliyevin dediyi kimi: "Biz sadəcə olaraq qan tökmək istəmirdik. Biz gücümüzü bilirdik və bilirdik ki, biz bu məsələni güc yolu ilə həll edə bilərik. Ermənistan isə buna inanmırdı".

Elə buna inanmaq da Ermənistanın fəlakətinin səbəbi oldu. Azərbaycanın dəfələrlə etdiyi xəbərdarlıqlardan nəticə çıxarmadığı üçün bu gün Ermənistan saysız-hesabsız itkilərinə görə 44 günlük müharibəni kədər, Azərbaycan isə 200 ildən sonra tarixinə yazılan qalibiyyətə görə sevinc hissi ilə yad edir.

İkinci Qarabağ müharibəsinin ildönümü ilə əlaqədar keçirilən sorğuda iştirak edən Ermənistan vətəndaşları bu müharibədə bütöv bir gənc nəsli itirdikləri üçün hələ də kədər hissi keçirdiklərini etiraf edirlər: "Azərbaycan "bunu edəcəm" (torpaqların azad edilməsi) deyirdi və etdi də. İndi bizim yaralarımızı zaman da sağaltmaz. Ancaq görünür ki, bu müharibədən hələ hər kəs nəticə çıxarmayıb".

Lakin onlardan fərqli olaraq, Azərbaycan Prezidenti, Azərbaycan xalqı yenidən müharibə istəmir. "Mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa" deyən dövlət başçısı ermənilərə növbəti mesajını da göndərib.

Ermənistanın 10 noyabr bəyanatının şərtlərini kobudcasına pozduğunu xatırladan Ali Baş Komandan bunu da nəzərə çatdırıb ki, biz hələlik səbirli, təmkinli davranırıq: "Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın".

*Müharibədən sonra Ermənistan tərəfdə yenidən revanşist qüvvələrin baş qaldırması bir daha təsdiqləyir ki, ermənilər, özlərinin də etiraf etdiyi kimi, hələ bu müharibədən nəticə çıxarmayıblar. Belə görünür ki, düşmən 1 il əvvəl Azərbaycanın onun başına vurduğu "dəmir yumruğ"un gücünü unudur, yenidən müharibə istəyir. Ancaq kimin qalib gələcəyi indidən bəlli olan bu müharibə hələ də matəm içində olan Ermənistana lazımdırmı?!*

**İlhamə İSABALAYEVA,**
**"Azərbaycan"**

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# Zəfər savaşımız və ya nə gözəl duyğudur Vətən sevgisi!

Müharibənin başlanması xəbərinin yayıldığı o həyəcanlı 27 sentyabr günündən bir il ötür. Qan-qada, ölüm-itim olan, insanlara iztirab, kədər, göz yaşları gətirən müharibə dəhşətləri uzun illər boyunca xalqımızın taleyinə yazılsa da, əslində, biz alovlanan bu hərb qovğasına sevinirdik. Ürəyimizi həyəcan qarışıq coşqu, sevinc hissi bürümüşdü. Ən başlıcası isə illər boyu daşa dəyib çiliklənən ümidlərimiz yenidən cücərib bizə bu dəfə "qələbə mütləq bizim olacaq" inamını aşılayırdı. "Qığılcımdan alov doğar" kəlamı sanki o günlər üçün deyilibmiş. Səbir kasası aşıb-daşan ürəyimizə səpilmiş ümid və inam qığılcımları həmin gün boy verib gur alova çevrilmişdi.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin həmin gün xalqa müraciəti ümidlərimizə nur çiləmiş, əzəli-əbədi Qarabağımızın və erməni vandallarının işğal etdiyi digər yurd yerlərimizin azad ediləcəyinə inamımızı artırmışdı. Ali Baş Komandan Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter aldığını, 27 sentyabr tarixində səhər tezdən düşmənin silahlı qüvvələrinin hərbi mövqelərimizi və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutduğunu, mülki əhali və hərbçilərimiz arasında itkilərin, həmçinin şəhidlərin və yaralananların olduğunu, onların qanının yerdə qalmayacağını söyləmişdi. Erməni faşizminin növbəti təzahürünün aradan qaldırılması üçün ordumuzun elə həmin saatlardan düşmənə sarsıdıcı zərbələr endirdiyini, qarşı tərəfin hərbi texnikasının sıradan çıxarıldığını diqqətə çatdırmışdı.

Ötən ilin iyul ayında Tovuz istiqamətində düşmənin törətdiyi hərbi təxribat, avqustda ölkəmizə planlaşdırılmış diversiya qrupunun göndərilməsi Ermənistan hərbi-siyasi rəhbərliyinin yeni ərazilər uğrunda işğal siyasətinin tərkib hissəsi idi, eyni zamanda Azərbaycanda terror aktları törətmək məqsədi güdürdü.

Başladığımız haqlı savaş regionda təhlükə mənbəyi olan Ermənistanın çirkin işğalçılıq və mülki əhaliyə qarşı terror siyasətinə qarşı yönəlmişdi. Cəmi 44 gün çəkən İkinci Qarabağ müharibəsinin məqsədi bütün dünyanın Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığı Qarabağın düşmən tapdağından təmizlənməsi, yurd yerlərimizin azad edilməsi idi. Biz beynəlxalq hüquqa və ədalətə söykənib öz torpaqlarımızda düşmənə sarsıdıcı zərbələr endirir, erməni işğalına son qoymaq üçün ölkəmizin ərazi bütövlüyünü qoruyur, müdafiə edirdik. Bilirdik ki, dövlət başçısının təbirincə desək, "biz haqq yolundayıq, bizim işimiz haqq işidir. Biz Zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Qətiyyətlə söylənən bu fikirlər hər bir soydaşımızda həm haqq işimizin labüdlüyünə bir yəqinlik yaradır, həm də mübarizə əzmimizi artırırdı. Bu bir həqiqətdir ki, hər hansı bir savaşda qələbənin rəhni ruh yüksəkliyi, döyüş əzmi, möhkəm iradədir. Məhz bu amillər, üstəgəl həmrəylik, müdrik sərkərdəmizin rəhbərliyi ilə ordu və xalqın birliyi bizə möhtəşəm Zəfərimizin sevincini bəxş etdi. Bu coşqu, fərəh hissini heç nə ilə müqayisə etmək olmaz. Sən demə, insanın ömrü boyu unutmadığı bütün sevinc anları doğma yurd yerlərimizin azad edilməsi ilə bağlı yaşadığımız fərəh duyğusunun yanında zəif bir işartı imiş. Dağ boyda sevinci bizə yaşadan, xalqımıza xoş ovqat bəxş edən Milli Ordumuzla qürur duyuruq.

"Biz bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, mətin iradə sahibi kimi!" Ali Baş Komandanın bu mesajı tarixi ədalətin bərqərar olmasının bütün dünyaya ismarıcı, diktəsi idi. Fəxr-fəxarət hissi keçiririk ki, qalib ordumuz Zəfər çalmaqla adını dünya hərb tarixinə həkk edib. Əsirlikdə qalan torpaqlarımızın düşməndən azad edilməsi müdrik rəhbərimizin dönməz iradəsinin, ordumuzun əzmkarlığının göstəricisidir. Müzəffər ordumuz gündən-günə artan ruh yüksəkliyi, mübarizə əzmi və sərkərdəsinin qətiyyəti ilə çağdaş günümüzdə tarix yazıb. Bu qəhrəmanlıq tarixi həm də əsgər və zabitlərimizin şücaəti, hünəri ilə yazılıb.

Heç kəs anadan qəhrəman doğulmur. Qəhrəmanlığı doğuran zaman və insanın üzləşdiyi şəraitdir. Qəhrəmanlıq və Vətən sevgisi həmişə qoşa addımlayır. Dara düşən Vətənin harayına qalxan oğullarımız rəşadət, qəhrəmanlıq yolu keçərək əsl el igidləri kimi tanındılar, şirin canlarını doğma yurda fəda etdilər. Tanınmış türk şairi, türkçülüyün ünlü isimlərindən olan Hüseyn Nihal Atsızın məşhur şeirində deyildiyi kimi:

*Qəhrəmanlıq nə bir yüksəliş deməkdir,*
*Nə də ulduzlar kimi parlayıb sönməkdir.*
*Bunun için ölümə bir atılış gərəkdir,*
*Atıldıqdan sonra da bir daha dönməməkdir...*

Düşmən əsarətində qalmış yurd yerlərimizin hər qarışı uğrunda çarpışan, canından keçən igidlərimizin torpağa səpələnmiş al-qanıyla yazılıb hərb salnaməmiz. Doğma yurdun ərazi bütövlüyü uğrunda şəhid olan oğulları dünyaya gətirmiş analar "Təki Vətən sağ olsun!" deyirlər. Axı, məmləkəti düşmənə çəpər oğullar qoruyar, millətin namusunu, heysiyyətini, şərəfini hər şeydən uca tutarlar. Şanlı ordumuzun sıralarında birləşən ərənlər kimi.

"Qalib haqlı olandır" deyiblər. Əsgər və zabitlərimiz həm də məlum münaqişə nəticəsində öz yurdunda qaçqına və məcburi köçkünə çevrilmiş 1 milyondan artıq soydaşımızın çəkdiyi iztirablara son qoyulması, əzəli torpaqlarımızı murdar düşməndən təmizləmək üçün od-alov püskürən, barıt qoxulu cəbhələrə atılmışdı, Vətən müharibəsinə qoşulmuşdu. Onların dönməz savaşı, cəng-cidası, mücadiləsi müqəddəs amal uğrundaydı.

Olduqca çətin şəraitdə aparılmış Şuşa döyüşləri də dünya hərb tarixinin parlaq səhifələrindəndir. Şuşa səmasında cövlan edən "Bayraqdar"lar, PUA-lar da igid oğullarımız kimi, düşmənə göz açmağa aman vermədi. İşğalçılar vahimə, təlaş və çaşqınlıq içində canlarını götürüb, döyüş texnikasını, silahlarını tullayıb qaçırdılar. "Dəmir yumruq" öz sözünü demiş, yüksək döyüş hazırlıqlı əsgər və zabitlərimiz xüsusi savaş taktikası ilə erməni vandallarının qəniminə çevrilmişdi.

Unudulmaz 44 gün ərzində hər birimiz möhtəşəm həmrəyliyin şahidi olduq. Dövlət, xalq və ordu birliyinin qüdrətini gördük. Bu sıx vəhdət ürəyimizdə fəxarət duyğusu yaratdı. Xalqımız bütün dünyaya, bizi dəstəkləyən və dəstəkləməyən dövlətlərə haqq işi naminə bir yumruqtək birləşmək nümunəsi göstərdi. Çünki Vətənimiz düşmənin strateji nöqtələrini sərrast nişan alan, hədəfi iti görən qartal baxışlı, aslan pəncəli, təpərli oğullarına güvənirdi. İşğal altında olan torpaqlarımızı buxovdan, qandaldan məhz bu oğullar qurtardılar. Birinci Qarabağ savaşında döyüşmüş cəsur oğul və qızlarımızın bu dəfə övladları odlu cəbhələrdə Zəfər yürüşünə çıxıb, düşmənə qan uddurdu. Uzun müddətdən bəri bağlanmış, kol-kos basmış yollarımız açıldı. Otuz il əsirlikdə qalan, tank tırtıllarından cadar-cadar olmuş torpaqlarımız indi öz gerçək sahiblərinin nəfəsi ilə isinməkdədir.

"Qarabağda cənnət yaradacağıq!" mesajını verən dövlət başçısı yeni infrastruktur və quruculuq işlərinə başlanacağını bəyan etdikdən sonra əsl inkişaf mərhələsinə start verilib, yeni hədəflər müəyyənləşdirilib. İşğaldan azad edilmiş şəhərlərimizin, o cümlədən mədəniyyət paytaxtımız Şuşanın Baş planı həyata keçirilməkdədir. Nicat tapan yurd yerlərimiz tezliklə abad ediləcək, al-əlvan gülüstana çevriləcək.

Bu gün digər inkişaf etmiş ölkələr kimi, Azərbaycanın da təcrübələri beynəlxalq səviyyədə diqqəti çəkir. Prezident İlham Əliyev öz innovativ təşəbbüsləri, kreativ düşüncə tərzi ilə dünyada saysız-hesabsız uğurlara imza atan siyasi liderlərdən biri kimi tanınır. Onun rəhbərliyi ilə ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz və söz sahibinə çevrilib, etibarlı tərəfdaş kimi qəbul edilir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına və Qoşulmama Hərəkatına üzv ölkə kimi seçilməsi bunu sübut edən əsas amillərdəndir. Uğurlu diplomatik siyasətinin, intellektinin və qətiyyətli addımlarının nəticəsi olaraq, dövlət başçısı İlham Əliyev 2019-2022-ci illər ərzində Qoşulmama Hərəkatının sədri elan edilmişdir.

Hazırda Azərbaycan mükəmməl multikulturalizmi ilə də inkişaf etmiş ölkələr sırasındadır. Ölkədə yaşayan milli azlıqlara və etnik qrupların təmsilçilərinə olan tolerant münasibət Azərbaycanı nəinki regionda, bütövlükdə dünyada multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun əsas məkanlarından birinə çevirib. Ölkəmizdə keçirilən beynəlxalq mərasimlər, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları buna misaldır.

***Zemfira MƏHƏRRƏMLİ,***
***Əməkdar jurnalist***

# 3-4 oktyabr 2020-ci il ZƏFƏR gündəliyi

**Oktyabrın 3-də** bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

Gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin qarşısı alınıb və ona sarsıdıcı zərbələr endirilib.

Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləabad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Quzanlı, Əlibəyli və Ayaq Qərvənd kəndləri ağır artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görülür.

❖ ❖ ❖

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Silahlı Qüvvələrə Yardım Fonduna ianə edirlər.

Dövlət başçısının 2002-ci il 17 avqust tarixli 755 nömrəli fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 2020-ci il oktyabrın 1-dək 120.106.408,24 AZN, 218.680,68 ABŞ dolları, 18.341,0 avro və 5000 rubl vəsait daxil olur.

❖ ❖ ❖

Səhər döyüşləri zamanı bölmələrimiz tərəfindən düşmənin hərbi texnikasına sarsıdıcı zərbələr endirilir. Müdafiə Nazirliyi həmin anların videogüntülərini yayır.

❖ ❖ ❖



Ali Baş Komandan "Twitter" səhifəsində paylaşım edərək xalqa müjdəli xəbər verir:

"Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!".

❖ ❖ ❖

Bu xoş xəbərin arfınca Prezident daha bir məlumat paylaşır: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Günün sonunda Ali Baş Komandan xalqa daha bir müjdəli xəbər verir. Prezident "Twitter" səhifəsində yazır: "Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir.

Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Müdafiə Nazirliyinin yaydığı məlumatda bilirilir ki, bu gün bütün cəbhə boyu şiddətli döyüşlər davam edib. Cəbhənin müxtəlif istiqamətlərində yaşayış məntəqələrimiz düşmənin intensiv artilleriya və raket atəşinə məruz qalıb. Azərbaycan Ordusunun bölmələrinin qətiyyətli cavab tədbirləri nəticəsində yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətlərdə atəş mövqeləri susdurulub, düşmənə sarsıdıcı zərbə endirilib.

❖ ❖ ❖

Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb.

Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə qoşunlarımız tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib, şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. 5-ci dağatıcı alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

**Oktyabrın 4-də** Ermənistan ərazisindən Füzuli rayonunun ərazisi raket atəşinə, işğal altında olan ərazilərimizdən isə Ağdam və Tərtər rayonlarının kəndləri artilleriya atəşinə tutulur.

Xankəndi şəhərindən şimalda Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqeləri və yaşayış məntəqələrimiz son iki gün ərzində intensiv atəşə tutulur. Beynəlxalq təşkilatların nümayəndəlikləri vasitəsilə düşmənə bir neçə dəfə xəbərdarlıq edilməsinə baxmayaraq, bu, hələ də davam edir.

❖ ❖ ❖

Düşmən Gəncə şəhərini Ermənistan ərazisindən atəşə məruz qoyur. Erməni tərəfinin Gəncə şəhərindəki hərbi obyektlərin vurulması ilə bağlı yaydığı xəbər təxribat xarakteri daşıyır və yalandır.

Düşmən tərəfindən açılan atəş nəticəsində Gəncədə dinc sakinlərə, mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəyir.

❖ ❖ ❖



Düşmənin zirehli texnikaları, atəş-dəstək və təminat vasitələri məhv edilir. Azərbaycan Ordusunun rəhbərliyi döyüş tapşırıqlarının uğurlu icrasını planlaşdırır və təşkil edir. Dəfələrlə edilən xəbərdarlığa məhəl qoymayan düşmənə qarşı Azərbaycan Ordusu tərəfindən cəza tədbirləri görülür.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov açıqlama verərək deyir ki, Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir.

❖ ❖ ❖



Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancılır.

Artıq həmin postda Azərbaycan bayrağı dalğalanır!

❖ ❖ ❖

Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülür.

❖ ❖ ❖

Ali Baş Komandan İlham Əliyev rəsmi "Twitter" səhifəsində paylaşım edərək xalqa növbəti müjdəni verir: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım edir:

"Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ali Baş Komandan birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edir. Onlara tapşırıq verir ki, Ali Baş Komandanın təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar.

Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürlərini bildirərək, Prezidenti əmin edirlər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

❖ ❖ ❖



Axşam saatlarında Prezident xalqa müraciət edir. Prezident Cəbrayıl şəhərinin və rayonun doqquz kəndinin işğaldan azad edilməsi münasibəti ilə xalqı təbrik edir.

Ali Baş Komandan deyir ki, bir həftədir döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, torpaqlarımızdan qovur, canıqanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaq: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır".

Prezident deyir ki, Azərbaycan tarixində bir çox şərəfli anlar olub, amma onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Azərbaycan ədaləti bərpa edir: "Biz Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Prezident İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verərək bir daha bəyan edir ki, Azərbaycanı heç kim haqq yolundan döndərə bilməz.

"Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir" deyən dövlət başçısı vurğulayır ki, əgər Ermənistan atəşkəs istəyirsə, Azərbaycandan üzr istəyib, torpaqlarımızdan çıxmaqla bağlı vaxt cədvəli təqdim etsin. Belə olarsa, Azərbaycan Ordusunun uğurlu əməliyyatları dayandırılacaq və danışıqlar aparılacaq.

"Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və "Qarabağ Ermənistandır" deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, "Qarabağ Ermənistan deyil". Mənim sözüm budur".

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri tərəfindən Mingəçevir şəhərinin ərazisinə raket zərbələri, Tərtər şəhərinin ərazisinə isə artilleriya zərbələri endirilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



## Tamerlan Əliyev-100

# Xatirəsi qəlbimizdədir

Xeyirxahlığı, dürüstlüyü, bacarığı və zəhmətsevərliyi ilə tanınan, çoxlarına ümid yeri olan insanların ən böyük mükafatı unudulmazlıqdır. Dünya fani olsa da, ömür bitsə də, xoş əməlləri onları daim yaddaşlarda yaşadır. Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Tamerlan Əziz oğlu Əliyev də belə unudulmaz şəxsiyyətlərdəndir.

O, 1921-ci il oktyabrın 3-də Naxçıvan Muxtar Respublikasının Şahtaxtı kəndində dünyaya gəlmişdir. Atası görkəmli alim, ictimai-siyasi xadim və dövlət adamı Əziz Məmmədkərim oğlu Əliyev həyatı və fəaliyyəti boyu doğma vətəni Azərbaycana böyük qürur və təəssübkeşliklə xidmət etmişdir. Xalqının adına daim şərəf gətirmiş, mərhəməti, xeyirxahlığı, humanizmi ilə hər kəsin yaddaşında dərin iz qoymuşdur. Bu görkəmli şəxsiyyətin ömrü dövrün təlatümlərində keçmişdir. Qarşılaşdığı çətinliklərə, ağrı-acılara rəğmən böyük uğurlar qazanmışdır. Alicənablıq, həssaslıq və ziyalılıq ruhunda tərbiyə almış övladları da ataları kimi şərəfli ömür yaşamışlar. Qızı, böyük alim Zərifə Əliyeva Azərbaycan oftalmologiya elminə dünya şöhrəti gətirmişdir. Oğlu Tamerlan Əliyev şəfqətli həkim, bacarıqlı səhiyyə təşkilatçısı kimi tanınmış, tükənməz irsi, etik dəyərləri ilə gələcək nəsillərə əsl örnək olmuşdur.

T.Əliyev 1929-cu ildə Bakı şəhəri 3 saylı ibtidai məktəbə getmiş, sonra 176 nömrəli orta ümumtəhsil məktəbində təhsilini davam etdirmişdir. 1940-cı ildə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində yüksək fəallığı ilə seçilən gənc Tamerlan dərslərini əla qiymətlərlə oxumaqla yanaşı, institutun bütün ictimai işlərində fəal iştirak etmişdir. Həmin illərdə fakültə divar qəzetinin redaktoru, institut tələbə həmkarlar təşkilatının büro üzvü olmuş, təhsildə əldə etdiyi uğurlara görə o dövrün ən yüksək tələbə mükafatı olan Stalin təqaüdünə layiq görülmüşdür. Tamerlan Əliyev 1943-cü ildə hələ tələbə ikən təhsildə və ictimai işlərdə fərqləndiyinə görə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Böyük Vətən müharibəsi illərində o, dərsdənkənar vaxtlarında hərbi hospitalda işləyir, yaralı əsgərlərə tibbi xidmət göstərirdi. Azərbaycan Dövlət Tibb İnstitutunu 1944-cü ildə bitirən gənc həkim Tamerlan Əliyev bir müddət Azərbaycan Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda və sonradan Azərbaycan Tibb İnstitutunun mikrobiologiya kafedrasında çalışmışdır.

1945-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun fakültə terapiyası kafedrasında (indiki Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrası) işə başlamış və ömrünü bu kafedranın fəaliyyətinə həsr etmişdir. 1945-ci ildən ordinator, 1948-1969-cu illərdə assistent, 1969-cu ildə dosent vəzifələrində, 1970-1990-cı illərdə kafedranın müdiri və 1990-cı ildən ömrünün sonunadək kafedranın professoru vəzifəsində çalışmışdır.

Onun çoxcəhətli elmi tədqiqatlarının əsasını Azərbaycanın kurort amillərinin müalicəvi təsiri, endokrin sistem xəstəliklərinin patogenezinin klinikasının və müalicə üsullarının öyrənilməsi, qanın laxtalanma, əks-laxtalanma və fibrinoliz sistemində normal və patoloji şəraitdə baş verən dəyişikliklər və onların korreksiya üsulları, miokard infarktının müalicəsi və digər problemlər təşkil etmişdir. Tamerlan Əliyev həkimlik fəaliyyətinin ilk illərində Naftalan neftinin orqanizmin reaktivliyinə təsirinin öyrənilməsinə böyük əmək sərf etmişdi. O, 1954-cü ildə "Naftalan neftinin təsiri altında heyvan orqanizminin immunoloji reaktivliyinin xarakteristikasına dair materiallar" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Sonrakı illərdə isə Tamerlan müəllim respublikamızda əsası fakültə terapiyası kafedrasının professorları K.H.Jeqorov və İ.M.Orucov tərəfindən qoyulmuş tibbi problem-endokrinologiya sahəsində elmi tədqiqatlar aparmış və çoxillik gərgin əməyinin bəhrəsi olaraq 1969-cu ildə "Müxtəlif formalı şəkərli diabeti olan xəstəliklərdə periferik damarların vəziyyəti; metabolizm və qanın koaqulyasiyasının bəzi göstəriciləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Respublikamızda endokrinologiya və terapiya üzrə elmi-tədqiqat aparan alimlərə professor Tamerlan Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə Moskvanın, Tbilisinin və keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı elmi mərkəzləri ilə əməkdaşlıq aparmaq üçün geniş şərait yaradılmışdır. Endokrinoloqların Ümumittifaq Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü kimi o, dəfələrlə cəmiyyətin iclaslarında maraqlı məruzələrlə çıxış etmiş, səyyar elmi seminar və sessiyaların keçirilməsinin təşkilatçısı olmuşdur. Professor Tamerlan Əliyevin böyük səyi nəticəsində 1981-ci ildə Endokrinoloqların Ümumittifaq Cəmiyyətinin endokrin sistem patologiyasına dair səyyar elmi sessiyası Bakıda təşkil olunmuş və müvəffəqiyyətlə keçirilmişdir. Beləliklə, pofessor Tamerlan Əliyevin geniş fəaliyyəti respublikamızda endokrinologiya və kardiologiya elminin inkişafına təkan vermişdir. Tamerlan müəllim 10 ilə yaxın respublika Endokrinologiya Cəmiyyətinin sədri olmuşdur.

1975-ci ildə 4 nömrəli klinik xəstəxananın bazası əsasında 90 çarpayılıq endokrinoloji şöbə Tamerlan müəllimin təşəbbüsü və şəxsi iştirakı sayəsində yaradılmışdır. Həmin vaxtdan bu şöbədə fakültə terapiyası kafedrasının əməkdaşları 4 nömrəli xəstəxananın həkimləri ilə birlikdə şəkərli diabeti olan xəstələrin mərkəzləşdirilmiş formada müalicə və profilaktikasına dair əsaslı elmi işlər aparmışdır. Professor Tamerlan Əliyevin fakültə terapiyası kafedrasına rəhbərlik etdiyi dövrdə Bakı şəhərinin müxtəlif klinika və poliklinikalarından, respublikanın rayonlarından və hətta bəzi xarici ölkələrdən (İran, Suriya, Türkiyə) endokrinologiya sahəsində təkmilləşmə məqsədilə bu kafedraya həkimlər ezam olunurdu. Həmçinin kafedranın yerləşdiyi F.Ə.Əfəndiyev adına 4 nömrəli Bakı Klinik Xəstəxanasının müxtəlif şöbələrində və 1, 2, 10 nömrəli şəhər poliklinikalarında endokrinoloji xəstələrə bu kafedrada hazırlanan proqram üzrə məsləhətlər verilir, diaqnostik və müalicəvi yardımlar edilirdi.

Tamerlan Əliyevin şəxsi təşəbbüsü nəticəsində kafedranın bazasında respublikada ilk intensiv kardioloji yardım şöbəsi təşkil edilmiş, xəstəxanada müasir cihaz və avadanlıqlarla (elektrokardioqraf, kardiomonitor, exokardioqraf, veloerqometr, süni tənəffüs aparatı) təmin edilmiş reanimasiya və intensiv terapiya bloku, funksional diaqnostika şöbəsi yaradılmışdır.

Keçmiş SSRİ-nin bir çox regionlarında kardioloji xidmətin inkişafına başlandığı dövrdə Bakıda 4 nömrəli xəstəxananın bazasında miokard infarktı və şəkərli diabet kimi qarşılıqlı ağırlaşdırıcı xəstəlikləri olan şəxslərin distansion diaqnostikası, təxirəsalınmaz yardımı, intensiv terapiyası təşkil olunmuşdur. Orada xəstələrə ardıcıl reanimasion, terapevtik, funksional bərpa və nəhayət, "Bilgəh" kardioloji sanatoriyasında fərdi müalicə planı əsasında aktiv reabilitasiya tədbirləri həyata keçirilirdi. Keçmiş ittifaq üzrə bu növ xidmət ilk dəfə Azərbaycanda yaradılmış, səhiyyə təşkilatçıları tərəfindən yüksək qiymətləndirilmiş və respublikamızda xəstələr arasında ölüm faizinin keçmiş SSRİ üzrə orta göstəricilərdən aşağı düşməsinə kömək etmişdir.

Səhiyyənin belə mühüm problemlərinin həlli elmi-tədqiqat axtarışlarını genişləndirməyə, ürəyin işemik xəstəlikləri, hipertoniya, ürək çatışmazlığı, ürək aritmiyaları, şəkərli diabet və onun bir sıra ağır fəsadlarının öyrənilməsinə, diaqnostikasına və müalicəsinin təşkilinə yardım etmişdir. Görkəmli alim və həkim Tamerlan Əliyev Azərbaycanda kardioloji xidmət sisteminin elmi təşkili və bu sahələrdə kadrların hazırlanması istiqamətində əvəzsiz xidmət göstərmişdir. İndiyədək fəaliyyətdə olan akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu da professor Tamerlan Əliyevin təşəbbüsü və dəstəyi ilə yaradılmışdır. Yüksək elmi potensialı sayəsində qısa müddətə böyük alimin rəhbərliyi altında 25 elmlər namizədi və 5 elmlər doktoru hazırlanmışdır. Onlar bu gün müxtəlif kafedraların rəhbərləri, endokrinologiya və kardiologiya sahəsində aparıcı mütəxəssis kimi çalışırlar. Professor Tamerlan Əliyev 250-dən artıq elmi əsərin, 12 monoqrafiya və 1 dərsliyin müəllifidir. Onlardan "Şəkərli diabet" (1979), "Klinik laborator-diaqnostik tədqiqat üsulları" (1974), "Prediabet" (1982), "Şəkərli diabet haqqında ətraflı məlumat", "Biokimyəvi tədqiqat üsulları", "Şəkərli diabet zamanı qan dövranı pozulmaları və onların tənzimi" (1979), "Endokrinologiya" (1993), "Karbohidrat mübadiləsinin pozulmaları və ürəyin işemik xəstəliyi" (1983) və başqaları həkimlərimizin stolüstü kitablarıdır. Həmin monoqrafiyaların bir neçəsi xalq təsərrüfatı nailiyyətləri sərgisinin qızıl medalı ilə təltif edilmişdir, alimin "Endokrinologiya" əsəri bu sahədə Azərbaycan dilində yazılmış ilk dərslik idi. Professor Tamerlan Əliyev Azərbaycanda tibb elminin və səhiyyənin inkişafı sahəsində apardığı uzunmüddətli səmərəli işlərinə görə "Şərəf nişanı" və "Oktyabr inqilabı" ordenləri ilə, Azərbaycan Səhiyyə Nazirliyinin "Səhiyyə əlaçısı" döş nişanı və fəxri fərmanları ilə təltif olunmuşdur. O, 1981-ci ildə "Klinik laborator-diaqnostik tədqiqat üsulları" monoqrafiyasına görə Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.



Həkim, alim və müəllim keyfiyyətlərini özündə yüksək səviyyədə birləşdirən Tamerlan Əliyev respublika Səhiyyə Nazirliyinin baş terapevti idi, uzun illər Azərbaycanın tibb jurnalının redaksiya heyətinin üzvü, Azərbaycan Dövlət Tibb İnstitutunun doktorluq dissertasiyasının müdafiəsi üzrə ixtisaslaşdırılmış Elmi Şurasının sədri vəzifələrində çalışmışdır. Görkəmli alim elmi-metodik işlərin nəticəsinə görə, elmi kəşflər üzrə SSRİ Dövlət Komitəsinin üç şəhadətnaməsini almışdır. 1985-ci ildə Tamerlan Əziz oğlu Əliyevə respublikada elmi kadrların hazırlanmasında və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Görkəmli alim Tamerlan Əliyev tərəfindən araşdırılan şəkərli diabetin bütün aspektlərinin öyrənilməsi problemi kafedranın son 15 illik fəaliyyətində elmi-tədqiqatların əsas istiqamətlərini əhatə etmişdir. İndi də kafedrada Tamerlan müəllimin bir çox yetirmələri - onun işinin davamçıları fəaliyyət göstərirlər. Onlar şəkərli diabetin damar ağırlaşmalarının öyrənilməsi üzrə əsası professor T.Əliyev tərəfindən qoyulan tədqiqatları uğurla davam etdirirlər.

Elm xadimi, professor Tamerlan Əliyevin yetirmələri Avropa Endokrinoloqlar Assosiasiyasının üzvləri, şəkərli diabet problemi üzrə dünya forumlarının, simpoziumlarının iştirakçıları, məruzəçiləri olmaqla yanaşı, digər tibb müəssisələrinin işçilərinə elmi məsləhətlərlə yardım göstərir, şəkərli diabetin müalicəsinin dünya standartları səviyyəsində yeni aspektlərini hazırlayırlar.

Tamerlan müəllim xatirələrdə olduqca xeyirxah insan kimi qalmışdır. Professor T.Əliyev Moskvadakı elmi məsləhətçimlə xarici ölkədə bir yerdə konqresdə olmuş, mənə lazım olan köməyi etməyi ondan xahiş etmişdi. Moskvadan Bakıya qayıtdıqdan sonra Tamerlan müəllim tez-tez məni öz evinə dəvət edər, nəinki tibb sahəsində, bütün məsələlərdə öz dəyərli tövsiyələrini verərdi. Bizim müəllim-tələbə münasibətlərimiz dostluğa çevrilmişdi. Həyat yoldaşı, intellektual mədəniyyətə malik Tamella xanım, qızları Tamfira və Nigar çox alicənab insanlardır, məni həmişə doğmalarından biri hesab edirdilər. Nigar xanımın görkəmli musiqiçilər haqqında televiziyada çıxışı olanda Tamerlan müəllim məni xəbərdar edərdi ki, baxım. Ertəsi gün veriliş haqqında təəssüratımı, rəyimi soruşardı. Mənə göstərdiyi qardaşlıq dəstəyinin müqabilində mən də öz növbəmdə çalışıb xeyirxahıma - böyük ziyalı alimə lazımi qayğı göstərməyə can atırdım. Lakin onun bu təmənnasız qayğılarının əvəzini qaytarmaq mümkün deyildi! Əldə etdiyim bütün nailiyyətlərimə görə həmişə özümü Tamerlan Əliyevə minnətdar bilmişəm.

1990-cı ildə Moskvada doktorluq dissertasiyasını müdafiə edib Bakıya - Tibb Universitetinə qayıdandan bir müddət sonra mənə kafedra müdiri olmağı təklif etdi. Bu zaman etirazımı bildirdim... Sonra Tamerlan müəllim məni inandırdı ki, "artıq yorulmuşam (o zaman Tamerlan müəllimin 67 yaşı var idi) və kafedra müdirliyini ürəkdən sənə məsləhət görürəm". Tamerlan Əliyevin xeyir-duası ilə mən kafedra müdiri seçildim.

O xeyirxah insan haqqında saatlarla, günlərlə danışmaq olar. Tamerlan müəllim kafedramızın bütün əməkdaşlarına, 4 nömrəli xəstəxananın bütün həkimlərinə, ehtiyacı olanlara və ona müraciət edənlərin hamısına həmişə yardım etmişdir. Allah ona dərin zəka, müdriklik, uzaqgörənlik, insanı yaxşı tanımaq qabiliyyəti vermişdi. Tamerlan müəllim insanları, belə demək olarsa, intuisiya ilə tanıyırdı və yaxşını pisdən seçirdi. O, insanları sevirdi, yaxşılıq onun əsas qayəsi idi.

Səhiyyə Nazirliyinin indiki Kardiologiya İnstitutunun təşkil olunmasında müstəsna xidməti olsa da, o, institutda heç bir vəzifə təmənnasında olmadı. O, yorulmaq bilmədən insanlar üçün, doğma xalqı üçün çalışırdı.

Tamerlan müəllim yaddaşımda yüksək mədəniyyətli, təvazökar, xeyirxah, qayğıkeş, səmimi, yaxşı həkim və gözəl insan kimi yaşayır. Onun sadəliyində bir böyüklük, müdriklik var idi. Hər kəslə öz dilində danışmağı bacarırdı. Bunu isə böyük Yaradan hər kəsə nəsib etmir.

Tələbələri tərəfindən professorun əməli işləri bu gün davam etdirilir. Qayğıkeş həkim, istedadlı alim, gözəl insan olan Tamerlan Əziz oğlu Əliyev 1997-ci ildə vəfat etmişdir. Ulu Öndər Heydər Əliyev və hökumət üzvləri tərəfindən imzalanmış nekroloqda alimin həyat yolu bir daha nəzərdən keçirilmiş, elmi-pedaqoji fəaliyyəti yüksək dəyərləndirilmişdir.

Ümummilli Lider Heydər Əliyev görkəmli alim, həkim, professor Tamerlan Əliyevlə vida mərasimində demişdi: "Əlli il müddətində mən Tamerlanı yaxşı tanımışam, onun həyatını, fəaliyyətini həmişə müşahidə etmişəm. Alicənablığı, yüksək mədəniyyəti, ziyalılığı, fədakarlığı, sadəliyi, insanpərvərliyi ilə həqiqətən o, atasının - mərhum Əziz Əliyevin xüsusiyyətlərinin əksəriyyətini özündə əks etdirirdi. Mənim üçün isə onun bütün xüsusiyyətlərindən başqa ən dəyərlisi dostluğa sədaqətli olması idi. Sədaqətli insan idi. Tamerlan bütün mərhələlərdə mərd, sədaqətli dost olubdur. Hesab edirəm ki, insan mənəviyyatının ən yüksək keyfiyyəti, ən yüksək göstəricisi səmimilikdir, sədaqətlilikdir. Tamerlan bu keyfiyyətlərə malik bir adam idi. Hətta deyə bilərəm ki, bu keyfiyyətlərə görə nümunə idi. Ona görə də Tamerlanın xatirəsi heç vaxt unudulmayacaq. O, tələbələrinin, onu tanıyanların, onunla bir yerdə işləyənlərin, şəxsən mənim qəlbimdə daim yaşayacaqdır".

Tələbkar müəllim, sadiq dost, alicənab, işıqlı insan Tamerlan Əliyevin unudulmaz xatirəsi hər zaman qəlbimizdədir.

***Rafiq MƏMMƏDHƏSƏNOV,***
***professor,***
***Əməkdar elm xadimi***

# Azərbaycan-Koreya əməkdaşlığı möhkəm zəminə əsaslanır





Müasir dünyamızda elə ölkələr və xalqlar var ki, onları bir-birilə siyasi, iqtisadi, mədəni əlaqələrlə yanaşı, həm də tarixin dərinliklərinə gedən mənəvi tellər də birləşdirir. Azərbaycanın dövlət müstəqilliyi qazandığı ilk günlərdən sıx münasibətlər qurduğu qardaş ölkələrdən biri də Koreya Respublikasıdır. Digər tərəfdən müasir dünya iqtisadiyyatından, elm tutumlu sahələrdən söhbət düşəndə də ilk olaraq gözlərimiz önündə həm də dünya bazarında mühüm yer tutan Koreya canlanır.

Müstəqilliyinin yeni ildönümünü yeni uğurlarla qeyd edən Koreya Respublikası bu gün nəinki Şərqi Asiya regionunda, eyni zamanda bütün dünyada qabaqcıl ölkələrdən birinə çevrilmişdir. Modern iqtisadiyyat yaratmış bu ölkə elektron texnologiyalar, bilgisayarlar sahəsində üstünlüyünü neçə illərdir ki, qoruyub saxlayır. Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri, xalqımızın yaxın dostu, təcrübəli diplomat Kim Tonq Op müsahibələrinin birində qeyd etmişdi ki, Koreyaya səyahət edən hər bir şəxs dünya irsinin 13 obyektinin, dünya mirasının 19 qeyri-maddi mədəni irsinin, UNESCO-nun Yaddaş İrsinə daxil olan 16 sənədli irsin şahidi ola bilər. Bəşər mədəniyyəti xəzinəsinə məgər bundan gözəl töhfə ola bilərmi?

Bu gün Koreya Respublikası dünyanın inkişaf etmiş ən qabaqcıl ölkələri arasında yer tutur. Vaxtilə digər ölkələrdən yardım alan bu ölkə hazırda iqtisadi baxımdan zəif ölkələrə qrantlar ayırır, kreditlər verir, maliyyə yardımları göstərir.

Koreyanın iqtisadi inkişafının təməlində təhsilə olan ali münasibət durur. Təsadüfi deyil ki, dövlət siyasətinin mühüm tərkib hissəsi kimi bu sahəyə ciddi fikir verilir. Bunun məntiqi nəticəsi olaraq bu gün Koreya Respublikası, iqtisadiyyatı ən iti sürətlə inkişaf edən ölkələrdən biridir. "Samsung Electronics" və dövlətin dəstəyi ilə fəaliyyət göstərən digər nəhəng şirkətlər texnologiya sahəsində bir çox yeniliyə və kəşflərə imza atmışlar.

Azərbaycan Respublikasını Koreya ilə həm tarixi, həm də müasir və qarşılıqlı maraqlara əsaslanan faydalı əməkdaşlıq telləri bağlayır. Digər tərəfdən mənəvi telləri də qeyd etmək lazımdır. Belə ki, hər iki xalq Altay qrupuna aid olan dillərdə danışır. Qonaqpərvərlik, böyüklərə sayğı, ailə dəyərləri də bir-birimizə çox doğmadır.

Azərbaycan ilə Koreya arasında diplomatik əlaqələr 1992-ci ilin martında qurulub. Hər iki ölkə Asiyada Qarşılıqlı Fəaliyyət və İnam Tədbirləri üzrə Müşavirə çərçivəsində münasibətləri inkişaf etdirirlər. Ötən dövr göstərdi ki, Koreya Cənubi Qafqaz bölgəsində Azərbaycana, onun yeritdiyi daxili və xarici siyasətə böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bu ölkənin Cənubi Qafqaz regionunda ilk səfirliyi məhz Azərbaycanda açılmışdır.

Azərbaycan və Koreya arasında əlaqələri daha da möhkəmləndirmək üçün hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri mühüm əhəmiyyət kəsb etmişdir. Hələ 2006-cı ilin mayında Koreya Respublikasının Prezidenti Roh Mu Hyunun Azərbaycana rəsmi səfəri və Prezident İlham Əliyev ilə iki ölkə arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin prinsipləri haqqında bəyannamə imzalaması münasibətlərin inkişafında yeni səhifə açdı. Bunun ardınca Azərbaycan Prezidenti İlham Əliyev 2007-ci ilin aprelində ilk rəsmi səfərlə Koreyada oldu. Səfər çərçivəsində həmçinin Prezident İlham Əliyevə xoş məram nümayiş etdirilərək Kyunq He Universitetinin fəxri doktoru adı verildi. Prezident İlham Əliyevin 2012-ci ildə Koreyaya növbəti səfəri də qarşılıqlı əməkdaşlığın güclənməsinə müsbət təsir göstərdi.

Koreya həmişə Azərbaycanın haqq işini beynəlxalq forumlarda birmənalı şəkildə dəstəkləmişdir. O, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq forumlarda daim müdafiə etmişdir.

İki ölkə parlamentləri arasında əlaqələr də getdikcə yeni məzmun kəsb edir. Bu, özünü beynəlxalq tədbirlər zamanı da büruzə verir. 2021-ci ilin yayında Koreya Respublikasının Milli Assambleyasının sədri Pak Byon Sokun başçılıq etdiyi nümayəndə heyəti Bakıda səfərdə olmuş və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmişdir.

İki ölkə arasında iqtisadi-ticarət münasibətləri durmadan inkişaf edir. Azərbaycan tərəfi yüksək keyfiyyətli, rəqabətə davamlı məhsullara böyük maraq göstərdiyinə görə Koreya ilə bu sahədə əməkdaşlığa xüsusi diqqət yetirir. Təsadüfi deyil ki, 2020-ci ildə iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 179 milyon dollar olmuşdur. 2020-ci ildə pandemiya şəraitinə baxmayaraq, Azərbaycan ilə Koreya Respublikası arasında ticarət dövriyyəsi 2019-cu illə müqayisədə 10 faiz artıb.

Son illər Azərbaycanın idxal etdiyi Koreya məhsullarının çeşidi çoxalmışdır. Onların sırasına əsasən dərman preparatları, ölçü, nəzarət, tibbi və cərrahiyə alətləri və aparatları, rentgen avadanlıqları, polietilen, propilen, neft-qaz kəmərləri üçün borular, boyanmış, laklanmış və ya plastiklə örtülmüş, eni 600 mm-dən çox olan yastı polad prokatı, məişət cihazları, optik və fotoqrafika, elektrik və elektronika avadanlıqları, radioelektronika, nəqliyyat vasitələri və digər məhsullar daxildir.

Öz növbəsində Azərbaycan tərəfi Koreyaya xam neft, neft emalı məhsulları, kimya məhsulları, əlvan metallar, qara metallar və məhsulları, kənd təsərrüfatı emalı məhsulları, elektrik mühərrikləri ilə təchiz edilmiş digər məişət maşınları, yataq ləvazimatları və sairə ixrac edir.

Hazırda Azərbaycan kənd təsərrüfatı məhsullarını Koraya bazarına çıxarmaq üçün ciddi hazırlıqlar görür. Bununla əlaqədar artıq Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə birgə iş başlanıb.

Bu gün Koreya innovasiyaları Bakı şəhərinin idarəetmə sferasında, ali təhsil müəssisələri sistemlərində və əqli mülkiyyətin idarə olunmasında, eləcə də yüksək texnologiyaların tətbiq olunduğu bir sıra digər sahələrdə tətbiq olunur.

Ölkəmizdə yaradılmış əlverişli şərait Koreya şirkətlərinin fəaliyyəti üçün də geniş imkanlar açır. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda 74 Koreya şirkəti fəaliyyət göstərir. Son vaxtlar Azərbaycan ilə Koreya arasında qarşılıqlı maraq doğuran layihələr işlənib həyata keçirilməkdədir. Bakı şəhərində Koreya Ticarətin və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA) və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) nümayəndəliklərindən əlavə, "SK C&C", "Heerim", "Ultra Construction", "Pyunghwa", "Samsung Electronics" "Samsung Engineering", "Daewoo" "Kolon", "Koreya Torpaq Korporasiyası", "Ecovise" "Kukdong" və "Halla Construction" kimi Koreya şirkətləri fəaliyyət göstərir. Azərbaycanda daimi nümayəndəliyi olan KOICA əsasən təhsil, insan resurslarının inkişafı, həmçinin infrastruktur layihələrinə böyük əhəmiyyət verir. Bu günədək Azərbaycanda Koreya şirkətləri iki milyard dollara yaxın məbləğdə layihəni reallaşdırıb və maliyyələşdirib.

Azərbaycanın azad edilmiş ərazilərində infrastrukturun bərpasına dair layihələrdə, xüsusilə də "Yaşıl enerji zolağı" layihəsində iştirak etmək istəyən bir sıra Koreya şirkətləri ölkəmizin Energetika Nazirliyinə müraciət ediblər. Bu məsələyə ciddi əhəmiyyət verən səfir Kim Tonq Op 2021-ci ilin iyul ayının əvvəlində Şuşaya səfər etmişdir. Nəticədə Azərbaycan ilə Koreya arasında azad edilmiş ərazilərdə şirkətlərin iştirakı ilə bağlı bir sıra razılaşmalar əldə olunmuşdur.

İki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq genişləndirilir. Ölkəmizin tədarük və təchizat sisteminin daha da təkmilləşdirilməsi sahəsində Koreya təcrübəsinin öyrənilməsi və tətbiqi mühüm əhəmiyyət kəsb edir. Çünki Koreyanın aqrar sahədə zəngin təcrübəsindən bəhrələnmək müsbət nəticələr verə bilər.

Koreyanın "Farmconnect" şirkəti Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin nəzdindəki Tərəvəzçilik Elmi Tədqiqat İnstutu ilə "Smart Farming" ("ağıllı əkinçilik") texnologiyasının tətbiqi sahəsində əməkdaşlığa dair 2021-ci ilin iyulunda anlaşma imzalayıb. Anlaşmaya əsasən, Koreya tərəfi suni intellekt (Aİ) vasitəsi ilə məlumatların təhlili və məhsuldarlığın artırılması sahəsində Koreya texnologiyaları və təcrübələrinin ötürülməsini həyata keçirəcəkdir.

Son illər hər iki ölkədə biznes forumlarının keçirilməsi səmərəli xarakter almışdır. Adətən forumların işində hər iki ölkədən qida sənayesi, kimya, toxuculuq, kosmetik məhsullar və digər sahələrdə fəaliyyət göstərən onlarca sahibkar iştirak edir. Bütün bunlar Koreya tərəfinin Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu göstərir.

Mədəniyyətin müxtəlif sahələrində əlaqələr getdikcə inkişaf edir. Pandemiya turizmə ciddi zərbə vursa da, bu sahə perspektivli hesab olunur. İki ölkə arasında mədəniyyət və incəsənət sahəsində əlaqələr də inkişaf edir. Koreya mədəniyyəti, dili və musiqisinin Azərbaycanda tanıdılması məqsədilə Koreya Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi və səyləri ilə hər il milli və müasir musiqi konsertləri, K-pop yarışları, kino festivallar, nitq və bilik müsabiqələri, taekvondo yarışları təşkil edilir. Mütəmadi olaraq Azərbaycan telekanallarında Koreya filmləri, animasiyaları və musiqiləri yayımlanır.

Təhsil sahəsində əlaqələr durmadan güclənir. Dünyada ən çox mütaliə edənlərin koreyalı gənclər olduğunu düşünəndə bu ölkədə elmə, təhsilə marağın həm əhali arasında, həm də dövlət siyasətində böyük olduğunu görmək olar. 1994-cü ildən bəri Azərbaycan Dillər Universitetində Koreya dili tədris edilir, 2011-ci ildən isə Naxçıvan Dövlət Universitetində Koreya Mərkəzi fəaliyyət göstərir.

Bakı Dövlət Universitetinin bu sahədə fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Belə ki, Şərqşünaslıq fakültəsində koreyaşünaslıq ixtisası hələ 2007-ci ildən fəaliyyət göstərir və artıq bu ixtisas üzrə 70-dən çox məzun var. Burada tədris yerli müəllimlərlə yanaşı, koreyalı mütəxəssislər tərəfindən də aparılır. Əlavə edək ki, BDU Koreyanın bir neçə ali təhsil müəssisəsi ilə anlaşma memorandumu imzalayıb, Koreyanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə universitetdə Koreya dili, natiqlik, yaradıcılıq müsabiqəsi, pop musiqi festivalı keçirilib, Koreya dili və mədəniyyətini təbliğ edən, Qafqaz regionunda ilk dəfə olaraq 2018-ci ildə əsası qoyulan Koreya Fondu, Bakı Dövlət Universitetində Sejong Hagdang məktəbi fəaliyyət göstərir. Müntəzəm olaraq azərbaycanlı tələbələrə Koreya səfirliyi tərəfindən sertifikatlar təqdim edilir.

Azərbaycanda 2 universitetdə (BDU və ADU) ixtisas olaraq, 3 universitetdə isə xarici dil olaraq Koreya dili tədris olunur. Koreyanın Seconq İnstitutu da iki universitetdə (BDU və BMU) dil kursu olaraq fəaliyyət göstərməkdədir. Həmçinin Azərbaycan universitetlərinin Koreya universitetləri ilə tələbə mübadilə proqramları, BMU-nun isə İnha Universiteti ilə ikili diplom proqramı mövcuddur. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi Koreya hökumətinin texniki dəstəyi ilə Koreya tədris planına əsasən qurulmuşdur.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan və Koreya dövlətlərini həyatın bütün sahələrində bir-birinə bağlayan dostluq tellərinin kökündə hər iki xalqın mənəvi tellərlə sıx bağlı olması ilə yanaşı, indiki dövrdə iqtisadi tərəqqi səyləri də durur. Hər iki qardaş ölkənin və xalqın malik olduğu maddi və mənəvi potensiallardan maksimum istifadə edilməsi isə yaxın gələcəkdə qarşılıqlı münasibətlərin daha da yüksəlməsinə möhkəm zəmin yaradacaq.

Gələn il Azərbaycan ilə Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Möhkəm əminliklə qeyd etmək olar ki, bu otuz illik münasibətlər tarixi digər ölkələrlə qarşılıqlı əlaqələr üçün də nümunə olacaqdır.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***





# Bir il əvvəl Gəncə müdhiş günlər yaşadı



## Ermənistanın Gəncəyə oktyabrın 4-dən başlayan raket hücumları bütün bəşəriyyətə qarşı törədilən cinayət idi





*Əvvəli 1-ci səh.*

Artıq bizim qətiyyətli Ali Baş Komandanımız, güclü Ordumuz, etibarlı müttəfiqlərimiz vardır. Bunlarınsa nə demək olduğunu Ermənistan 44 gün ərzində gördü. Cəmi 44 gün davam edən Vətən savaşında əsgər və zabitlərimiz təqribən 300 yaşayış məntəqəsi, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəklikləri düşməndən azad etdilər. Noyabrın 10-da imzalanmış üçtərəfli sazişlə isə Ağdam, Kəlbəcər, Laçın rayonları bir güllə atılmadan, bir şəhid verilmədən Azərbaycana qaytarıldı.

Lakin düşmən müharibə günlərində hər cür çirkin əməllərə əl atdı - mülki əhalini atəşə tutdu, insan tələfatı ilə nəticələnən terror aktları törətdi, yaşayış yerlərinə bombalar və hətta qadağan olunmuş raketlər atdı. Əslində baş verən bütün bu hadisələr düşmənin olduqca rəzil, gücsüz durumda olduğunu göstərirdi. Azərbaycan isə tam əksi olaraq beynəlxalq hüquq normalarına, müharibə qaydalarına riayət edərək öz torpaqları uğrunda yalnız cəbhədə savaş aparırdı.

Həmin dövrlər Ermənistan silahlı qüvvələri cəbhə bölgəsindən xeyli aralıda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni 5 dəfə ayrı-ayrı vaxtlarda raket atəşinə tutdu.

**Birinci hücum:** Oktyabrın 4-də birinci dəfə atılan raketlərin törətdiyi dağıntılara görə Azərbaycan tərəfi məsuliyyəti Ermənistanın daşıdığını bildirsə də, qarşı tərəf bu ittihamı rədd etdi. Hücuma görə məsuliyyəti keçmiş Dağlıq Qarabağın rəsmiləri öz üzərlərinə götürdülər. Onlar hədəfin insanlar yox, şəhərdə olan hərbi təyinatlı binalar, habelə Gəncə Beynəlxalq Hava Limanı olduğunu bildirdilər. Halbuki Gəncədə ümumiyyətlə, hərbi təyinatlı binalar yox idi və bu gün də yoxdur.

Qeyd edək ki, həmin gün atılan üç raket zərbəsi nəticəsində bir nəfər həlak olmuş, 36 nəfər müxtəlif bədən xəsarətləri almışdır. Şəhərin Nəriman Nərimanov, Əziz Əliyev, Əli Nəzmi və digər küçələrində yerləşən evlər tamamilə dağılmış, nəqliyyat vasitələrinə ciddi ziyan dəymişdir.

**İkinci hücum:** Oktyabrın 5-də Ermənistan tərəfindən atılan növbəti raketlər Gəncənin "Grand Qafqaz" Ticarət Kompleksinə düşdü. Səhər saatlarında atılan 3 raket zərbəsi nəticəsində 3 nəfər müxtəlif bədən xəsarəti ilə xəstəxanaya yerləşdirildi. Şah İsmayıl Xətai prospektində yerləşən ticarət mərkəzinə külli miqdarda ziyan dəydi. Bundan başqa, "İmamzadə" dini kompleksində də dağıntılar oldu.

**Üçüncü hücum:** Oktyabrın 8-də ermənilər Gəncəyə üçüncü raketi atdılar. İnsanların şirin yuxuda olduğu vaxt endirilən zərbə nəticəsində ölən və yaralanan olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi. Gecə saat 3 radələrində atılan raket Həsən Əliyev və Pərviz Səmədov küçələrində yerləşən qeyri-yaşayış sahəsində xeyli dağıntı törətdi, bir avtomobil tamamilə yararsız hala düşdü. Bundan başqa, 1887-ci ildə xeyriyyə vəsaiti ilə inşa edilmiş Aleksandr Nevski Rus Pravoslav Kilsəsinə də ziyan dəydi.

**Dördüncü hücum:** Oktyabrın 11-də yerli vaxtla saat 02:00-da atılan raketlər şəhərdə böyük dağıntılar törətdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, şəhər Ermənistanın Berd rayonunda yerləşən erməni silahlı qüvvələri tərəfindən "Skad" tipli ballistik raketlərlə atəşə tutulmuşdur. Raketlər yaşayış ərazisinə düşmüş və ətrafda olan bütün binaları dağıtmışdır. Böyük dağıntılar törədən raket 31 mənzili tamamilə uçurmuş, hadisə yerində və onun yaxınlığındakı obyektlərə ciddi ziyan vurmuşdur. Hücumdan ümumilikdə 205 nəfərin yaşadığı 95 mənzil qəzalı vəziyyətə düşmüşdür. 10 nəfər həlak olmuş, 34 nəfər yaralanmışdır.

**Beşinci hücum:** 17 oktyabrda, təxminən yerl vaxtla 01:00-da ermənilər yenə "Skad" ballistik raketləri ilə Gəncəni atəşə tutdular. Aida İmanquliyeva və Samir Xasıyev küçələrinə düşən raket zərbələri nəticəsində böyük dağıntı oldu. Çünki raketlər əhalinin sıx yaşadığı əraziyə düşmüşdü. Bu zaman xeyli sayda müxtəlif yaşayış evləri və digər tikililər ziyan gördü. Hadisə zamanı 20 ev dağılmış, xeyli sayda mülki şəxs dağıntının altında qalmışdır. Hücum nəticəsində 15 nəfər həlak olmuş, 54 nəfər yaralanmışdır.

Beləliklə, Gəncə şəhərinə atılmış raket zərbələri nəticəsində 6-sı uşaq və yeniyetmə olmaqla, ümumilikdə 26 nəfər həlak olmuş, 29-u uşaq olmaqla, ümumilikdə 130-a yaxın insan müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Bu hadisələr zamanı 3 ailənin üzvü olan 4 uşaq hər iki valideynini itirmişdir.

Bəli, erməni faşistləri insanlığa sığmayan bu cür əməlləri ilə beynəlxalq norma və prinsipləri kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməlləri törətmişdir.

Buna baxmayaraq, tutduğu cinayət hadisələrini ört-basdır etməyə çalışan Ermənistan KİV-də, eləcə də sosial şəbəkələrdə törətdiyi cinayətləri pərdələməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərlər yaymağa başlaşdı. Lakin hadisə yerlərindən yerli və xarici medianın yaydığı foto və videogörüntülər bu yalanları ifşa etdi.

Bütün xalqımız, o cümlədən gəncəlilər də yaxşı başa düşürdülər ki, Azərbaycanın haqq davasında ermənilərin törətdikləri bu cinayətlər suda boğulanın saman çöpündən yapışmasıdır. Məhz buna görə Ermənistanın Gəncəni raket atəşinə tutması sakinlər arasında ruh düşgünlüyü yaratmadı. Əksinə, gəncəlilər bir daha əmin oldular ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu tezliklə düşmən üzərində qəti qələbə qazanacaq.

Qeyd etdiyimiz kimi, Gəncəyə atılan raketlər nəticəsində çoxsaylı insan tələfatı olmuşdur. Onların arasında məktəblilər də var idi. Həlak olmuş 35 nəfərdən 10 nəfəri məktəbli idi. 32 nömrəli məktəbin 2-ci sinif şagirdləri Ömər Mehdiyev və Dinarə Muradova, 3-cü sinif şagirdləri Murad Cavadov və Hüseyn Əliyev, 6-cı sinif şagirdi Sevinc Rəhimova, 11-ci sinif şagirdi Səlim Mustafazadə, 20 nömrəli məktəbin 10-cu sinif şagirdi Arzu Əliyeva, 25 nömrəli məktəbin 6-cı snif şagirdi Şəfa Şirinova və 7-ci sinif şagirdi Şəmiddin Şirinov isə yaralanmışdılar. Raket atəşi nəticəsində dağılan evlərdə 29 nömrəli məktəbin 4 şagirdi həlak olmuş, 9-cu sinif şagirdi Amin Əsgərov isə ağır yaralanmışdır. Ermənilərin törətdikləri vandalizm aktı nəticəsində Gəncədə 3 uşaq hər iki valideynini itirmişdir.

Gəncədə dinc sakinlərin raket atəşinə tutularaq qətlə yetirilməsi düşmənin nə qədər qəddar və məkrli olduğunu bir daha sübut etdi. İşğalçılar beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyasının müddəalarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozmaqla dinc əhalini hədəfə almış, yaşlılara və azyaşlı uşaqlara qarşı soyqırımı törətmişlər. Humanitar atəşkəsin imzalandığı vaxtdan cəmi 14 gün sonra Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə uzaqvuran ballistik raketlərin atılması nə müharibə qanunlarına, nə də insanlığa sığan bir cinayət idi. Amma o da məlum idi ki, Ermənistanın bu əməlləri cəbhədəki uğursuzluqlarının nəticəsidir. 44 gündə müzəffər Azərbaycan Ordusu irəlilədikcə, döyüşlərdə qələbələr qazandıqca düşmən öz məkrli niyyətini bu yolla həyata keçirməklə məğlubiyyətlərini ört-basdır etməyə çalışırdı.

Bu cinayətə xarici jurnalistlər də susmadı. Ukraynalı jurnalist Yuri Butusov dağılmış evləri görərkən demişdir ki, bu, çox təsiredicidir: "Mən burada gördüklərimi ömrüm boyu unutmayacağam". Ukraynalı digər jurnalist Taras Berezovets isə bildirmişdir ki, işğalçı ermənilərin Qarabağdakı cinayətlərinin sübutlarını toplamaq çox vacibdir: "44 günlük müharibə haqqında çox oxumuşam. Elə mən özüm də bu barədə dəfələrlə yazmışam. Ancaq burada gördüklərim məni heyrətə gətirdi".

Rusiyalı siyasətçi və jurnalist Maksim Şevçenko da Gəncəyə səfəri çəçivəsində ermənilərin atdıqları ballistik raketlərin dağıtdıqları ərazilərdə olarkən dinc əhaliyə raket hücumunu terrorun qatı nümunəsi kimi dəyərləndirmişdir: "Bu əməllərin məqsədi mülki sakinlərin öldürülməsi və şəhərdə miqyaslı dağıntılar törədilməsi yolu ilə kütləvi vahimə yaratmaq olub. Lakin bu xain hücumlar əks nəticə verdi. Azərbaycanlılar bunun cavabını öz doğma torpaqlarını qaytarmaq üçün açdıqları hərb meydanında verdilər, terror hücumlarından ölənlərin də əvəzinə vuruşub, onların da qisasını aldılar".

İtaliyanın nüfuzlu xəbər agentliklərinin əməkdaşları da Gəncədə gördüklərindən heyrətə gəlmişdilər. Bu ölkənin televiziya kanalları, xəbər agentlikləri, o cümlədən "Rai", "Mediaset", "Ansa", "Agi", "La7", "İl Sole 24 Ore", "İl Giornale", "Adnkronos", "Notizie Tiscali", "Notizie Yahoo" və digər kütləvi informasiya vasitələri Ermənistanın törətdiyi vəhşiliklər haqqında çoxsaylı materiallar hazırlayıb yaymışlar.

Ümumiyyətlə, 44 günlük müharibə haqqında dünyanın bir çox nüfuzlu KİV-i Azərbaycanın haqq işi ilə əlaqədar çoxsaylı məqalələrlə çıxış etmişlər. Türkiyə, Argentina, Xorvatiya, İsrail, Malayziya, İndoneziya, Pakistan və s. ölkələrin kütləvi informasiya vasitələrində Qarabağın işğaldan azad olunmasında Azərbaycan Ordusunun qazandığı uğurlardan, eləcə də Ermənistanın dinc əhaliyə qarşı apardığı terror aktlarından bəhs edən materiallar verilmişdir.

Artıq neçə vaxtdır Gəncədə erməni terroru nəticəsində dəymiş ziyanın aradan qaldırılmasına başlanılmışdır. Bu ziyanlar isə az deyil. Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində 1000-dən artıq fərdi yaşayış evi qismən zədələnmiş və ya tamamilə dağılmışdır.

Bu gün qismən ziyan dəymiş 253 evin təmiri başa çatdırılmışdır. 893 evdə isə işlər davam edir. Bununla yanaşı, 24 qəzalı evdən 10-nunun tikintisi aparılır, 14 evin fərdi layihəsi hazırlanır. 10 ailə isə yeni tikilmiş çoxmərtəbəli binalarda evlə təmin edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

**Biz birlikdə güclüyük!**

# Xüsusi karantin rejiminin yumşaldılması pandemiyanın yox olması deyil

*Əvvəli 1-ci səh.*

Fəaliyyəti bərpa edilən iş və xidmət sahələri saat 00:00-dək xidmət göstərir və həmin iş və xidmət sahələrinin qapalı məkanlarında göstərilən xidmətlərdən yaşı 18-dən yuxarı olan şəxslər yalnız COVID-19 pasportuna sahib olduqları halda istifadə edə bilərlər. Müəyyən səbəblərdən peyvənd oluna bilməyən şəxslərin COVID-19 pasportu tələb olunan məkanlara əldə etdikləri COVID-19 infeksiyası əleyhinə peyvəndə Əks Göstəriş sertifikatı ilə daxil olması mümkündür. Qeyd olunan iş və xidmət sahələrinin işçi heyətinin 80 faizinin COVID-19 pasportuna (COVID-19-a qarşı peyvənd sertifikatı və ya COVID-19-a qarşı immunitet sertifikatı) malik olması mütləqdir.

Qərara əsasən, Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu arasında müntəzəm sərnişindaşıma istisna olmaqla, ölkənin şəhər və rayonlarından dəmir yolu nəqliyyatı və avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları (taksi minik avtomobilləri ilə sərnişin daşımaları istisna olmaqla) həyata keçirilərkən yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla, sərnişinlərdən 2021-ci il 1 oktyabr tarixindən etibarən COVID-19-a qarşı birinci doza, 2021-ci il 1 noyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatının olması tələb olunur.

Qərarda bildirilir ki, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə, sosial məsafənin qorunması və əl gigiyenası kimi ümumi qaydalara, habelə tətbiq edilən digər tələblərə riayət olunmasını təmin etmək məqsədilə müvafiq nəzarət tədbirlərinin icrasına davam ediləcək, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının pozulması aşkar edildiyi hallarda fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər.

Gözlənilən qərar verildi. Xüsusi karantin rejimi yumşaldıldı. Amma iki ilə yaxındır ki, hər birimizin həyatını təhdid edən yeni növ koronavirus hələ də bizimlədir. Onu görməzdən gələrək ehtiyatsız davrandığımız hər yerdə virusun qarşımıza çıxa biləcəyi ehtimalını istisna etmir. Məlumdur ki, çox sayda insanın uzun müddət qapalı yerdə toplaşması koronavirus infeksiyasının yayılmasına münbit şərait yaradır. Odur ki, indi daha çox diqqət yetirməli, qaydalara əməl etməli, həm özümüzün, həm də ətrafımızdakıların sağlamlığını düşünməliyik. Koronavirusun çarəsi tapılmasa da, onunla mübarizə üsulu bəllidir. Sadə qaydalara ciddi əməl olunmalı, maskanı düzgün taxmalı, məsafəni mümkün olduğu qədər gözləməliyik. Gigiyenik tələblərə riayət etmək, vaksin olunmaq vacibdir.

Nəzərə alınmalıdır ki, adətən, soyuq aylarda ənənəvi olaraq qrip və digər kəskin respirator virus xəstəliklərinə yoluxma çoxalır. Bu da immunitetin zəifləməsinə səbəb olur. Mütəxəssislər belə nəticəyə gəliblər ki, bu payız COVID-19-a yoluxanlarda simptomlar pandemiyanın əvvəlki dalğaları zamanı müşahidə ediləndən fərqlidir. Rusiyalı mütəxəssislərin rəyinə görə, hazırda koronavirusun simptomları adi qripdən fərqlənmir. Temperatur qripdə olduğu kimi yüksəlsə də, uzun müddət davam edir.

Həkim Aleksandr Ediqer hazırda virusa yoluxanlarda burun axması, əzələ və boğaz ağrısı müşahidə olunduğunu diqqətə çatdırıb. Eyni zamanda, şiddətli nevroloji simptomlarla da qarşılaşmaq mümkündür. Belə ki, xəstələrdə baş gicəllənmə, baş ağrıları, sürətlə zəifləmə təsbit edilir, hətta ayağa qalxmaq istəyərkən ürəkgetmə halları baş verə bilər.

Adətən bu simptomlar xəstəliyin ikinci günündən başlayır və həftələrlə davam edir. Pasiyentlərdə əvvəlki əlamətlərin - həzm pozğunluqları, qarın ağrısı, ishal, ürəkbulanma və qusmanın qalması da mümkündür.

Güclü burun axmasının koronavirus infeksiyasının yeni bir simptomuna çevrildiyini əlavə edən Tibb İşçiləri Həmkarlar İttifaqının rəhbəri və təcili yardım işçisi Dmitri Belyakovun fikrincə, xəstəlik getdikcə sürətlənir, heç də az təhlükəli deyil.

Koronavirus xəstəliyinə qriplə birlikdə yoluxduqda ağırlaşmalara səbəb olur. Bu qənaətə Rusiyanın Vektor Mərkəzinin mütəxəssisləri heyvanlar üzərində araşdırma apardıqdan sonra gəliblər. Mütəxəssislər koronavirus və qripin birləşməsi ilə xəstənin qripi ağır formada keçirdiyini müəyyənləşdiriblər. Laboratoriya heyvanları üzərində aparılan testlərin nəticəsindən məlum olub ki, infeksiya səviyyəsi yüksəkdir.

Alimlərin fikrincə, əsas təhlükə koronavirusun digər viruslarla qarışaraq xəstəliyin gedişatını dəyişə bilməsidir. Mütəxəssislər həmçinin fərqinə varıblar ki, 2020-ci ildə COVID-19 qrip virusunu böyük ölçüdə əvəz edib.

Dünyada 4,5 milyondan çox insanın ölümünə səbəb olan COVID-19-a çarə axtaran mütəxəssislərin araşdırmalarını davam etdirdiyi bir vaxtda bu xəstəliyin gedişatını asanlaşdıran həblər hazırlandığı barədə də məlumat yayılıb. Transmilli əczaçılıq şirkəti "Merck" və biotexnoloji şəriki "Ridgeback Biotherapeutics" firmasının hazırladığı dərman "Molnupiravir" adlanır. Şirkət bu həbi həm də koronavirusa qarşı peyvəndlərə alternativ hesab edib. 775 peyvənd olunmamış koronavirus xəstəsi üzərində sınaqdan keçirilən həblərin insanlarda xəstəxanalıq olma və ölüm hallarının 50 faizədək azaltdığı müəyyənləşib.

Dərmanın gözlənildiyindən də yüksək nəticə verdiyini bildirən "Merck"in araşdırma qrupunun üzvü Dean Li son sınaqda 1500-dən çox insanın iştirak edəcəyini deyib. Tezliklə şirkət ABŞ və digər ölkələrdəki nümayəndəliklərə dərmanın qeydiyyata alınması ilə bağlı müraciət edəcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***







# Məhsuldar sort yüksək nəticənin qarantıdır

*Əvvəli 1-ci səh.*

Yeni toxuculuq və iplik məhsulları istehsal edən yerli sənaye müəssisələrinin sayının artması da pambıqçılığın dirçəlməsi hesabınadır. Bu hesaba həm də qeyri-neft məhsullarının ixracında pambıq mahlıcının payı ildən-ilə artır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nda verilən məlumatda bildirilir ki, təkcə cari ilin yanvar-iyul aylarında qeyri-neft məhsullarının ixracında pambıq mahlıcı 133,8 milyon dollar dəyərlə siyahıda birinci olmuşdur.

Məlumdur ki, bütün aqrar sahələr kimi, pambıqçılıqda da istehsalın artımı ilk növbədə məhsuldar sortlardan asılıdır. Məhz məhsuldar sortlardan istifadə daha çox istehsala, maya dəyərini aşağı salmağa, enerji növlərindən və gübrələrdən az istifadəyə imkan verir. Bu gün Azərbaycanda regionların iqlim şəraitinə uyğun, quraqlığa və xəstəliklərə dözümlü olan yeni sortlar yetişdirilir. Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu tərəfindən həyata keçirilən elmi tədqiqatlar sayəsində uğurlu nəticələr əldə olunur. Bugünə kimi 12 növ sort rayonlaşdırılıb. Perspektivi daha çox olan 20 sort üzərində isə işlər davam edir. Hazırda bu sortların ilkin sınaq mərhələsi aparılır.

İnstitut əməkdaşları tərəfindən yetişdirilən "Gəncə-182", "Gəncə-183", "Gəncə-132" sortları daha yaxşı nəticə verir. Həmin sortlar yüksək məhsuldarlığı, xəstəliklərə dözümlüyü ilə bərabər, həm də dünya toxuculuq sənayesinin tələbələrinə uyğun lif çıxımı ilə seçilir.

Cari il 28 sortda müqayisəli, 20 sortda ilkin sort sınaqları aparılıb. Eləcə də atom şüası ilə şüalandırılan Pakistandan gətirilmə 7 sort sınaq üçün əkilib.

Alimlər belə qənaətə gəliblər ki, Pakistandan gətirilən 7 sort arasından məhsuldarlığı ilə seçilən "Cotton Super" sortu bizim regiona daha uyğundur. Belə ki, həmin pambığın kolunda 60-120 qoza müşahidə olunur. Yeri gəlmişkən qeyd edək ki, hazırda institutun Mil Təcrübə Stansiyasında 72 sort sınaqdan keçirilir ki, onlardan 7-si Pakistan, 1-i Türkiyə, digərləri isə əsasən yerli sortlardır. Bundan başqa, təcrübə stansiyasında 3 sortun aqrotexnologiyası öyrənilir. 12 sortun isə nümayiş əkini həyata keçirilib.

Ölkəmizdə pambıq yığımına başlanılıb. Mütəxəssislərin ilkin rəylərinə görə, cari il daha çox məhsul istehsal etmək imkanı var. Məsələn, Zərdabda bu il 3070 hektarda pambıq yetişdirilib. Mövsüm ərzində 2620 hektarın məhsulu kombaynlarla, qalanı isə əllə yığılacaq. Hazırda yığıma 8 pambıqyığan maşın və 200 nəfərdən çox işçi qüvvəsi cəlb olunub. Yerli mütəxəssislər bildirirlər ki, cari mövsümdə rayon pambıqçıları hər hektardan 28-30 sentner məhsul götürəcəklər.

Ağcabədi ölkəmizin iri pambıqçılıq rayonlarındandır. Rayonda yığıma 53 kombayn, 128 traktor, 276 qoşqu, 5 yükləyici və 39 çiləyici cəlb olunub. Cari mövsüm rayonda 38 min tondan çox məhsul istehsalı gözlənilir. Xatırladaq ki, ötən il 10 min 689,2 hektardan 37 min 887 ton məhsul toplanmış, orta məhsuldarlıq 35,44 sentner olmuşdur. Bu il həmin rəqəmin daha yüksək olacağı proqnozlaşdırılır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Torpağı vətənləşdirənlər...



44 günlük Vətən müharibəsi Azərbaycan xalqına zəfər sevincini bəxş etməklə yanaşı, xalqımızın qəhrəman oğullarını da bir daha özümüzə tanıtdı. Neçə-neçə igid Vətən uğrunda haqq savaşının iştirakçısı, şəhid və ya qazi oldular. Sonunda Zəfər çaldığımız bu müharibə Azərbaycan xalqının Vətənə necə bağlılığını, onun üçün gözünü qırpmadan canından keçməyə hazır olduğunu bir daha nümayiş etdirdi. 30 ilə yaxın bir dövr ərzində davam edən amansız erməni işğalına qarşı xalqımız yumruq kimi birləşdi, mərd oğullarımız könüllü olaraq Vətənin müdafiəsinə qalxdılar.

Belə mərd oğullardan biri də oktyabr ayının 29-da Qubadlı-Laçın istiqamətlərində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Asəf Nəsibovdur. Qəhrəmanımız Asəf 25 fevral 1994-cü ildə Qazax rayonunun Qaymaqlı kəndində dünyaya göz açıb. 2000-2001-ci illərdə Qaymaqlı kənd orta məktəbində, 2011-2015-ci illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil almışdır. 2015-2016-cı illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2016-cı il Aprel döyüşlərində iştirak etmişdir.

Asəf istedadlı gənc və bacarıqlı kadr idi. Müxtəlif vəzifələrdə işləyən Asəfin son iş yeri İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC olmuşdur. Asəf həm doğma kollektivi, həm də ətrafında olan bütün insanlar tərəfindən xeyirxahlığı və nəcib keyfiyyətləri ilə hörmət qazanmışdı.

Təbiətən xoşrəftar, qayğıkeş və səmimi insan olan Asəf düşmən təxribatları başlayan ilk gündən etibarən heç bir tərəddüd etmədən könüllü olaraq cəbhəyə yollanmışdı. O, qaynar döyüşlərin getdiyi Cəbrayıl, Qubadlı və Laçın rayonlarının və kəndlərinin, o cümlədən bir sıra strateji yüksəkliklərinin azad edilməsi istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərmişdi. 29 oktyabrda Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə Asəf qəhrəmancasına şəhadətə yüksəlmişdi.

Asəf Nəsibov döyüşlərdə göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Prezidentinin sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə, "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdi.

Qarabağda Azərbaycanın bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimiz kimi Asəfin də ömür yolu gənclərə örnəkdir. Hər bir Azərbaycan vətəndaşı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox nümunələri öyrənməlidir. Onlar bilməlidirlər ki, vətənimizin müdafiəsi uğrunda savaşmaq və şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur.

Əlbəttə, bu böyük zəfər qətiyyətli siyasi iradə və əzmin nəticəsində, ilk növbədə, qəhrəman igidlərimizin canı-qanı bahasına əldə edilib. Bu qələbədə mənfur düşmənə qarşı inanılmaz şücaətlə vuruşan, öz həyatını qurban edən şəhidlərimizin xidməti əvəzsizdir.

Vətən uğrunda canından keçənlər ölmür. Şəhidlər əbədiyaşardır. Onlar Vətən uğrunda vuruşdular, Vətən naminə canlarından keçməyi bacardılar. Torpağı vətənləşdirən də onlardır. Amma Asəfin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olan digər şəhidlərimizin qanı yerdə qalmadı.

Sonda sözlərimi türk şairi Mithat Cemal Kuntayın aşağıdakı misraları ilə bitirmək istəyirəm.

***Bayraqları bayraq yapan üstündəki qandır,***
***Torpaq, uğrunda ölən varsa, Vətəndir!***

Bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik. Onları daim xoş xatirələrlə anacaq, heç vaxt unutmayacağıq.

***Elçin KAZIMLI***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91*
*"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13*
*"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53*
*"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24*
*"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01*
*"Səma-M" MMC (012) 594-09-59*
*"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22*
*"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00*
*"City press" MMC (055) 819-09-26*

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



*Təkrar*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs "Tibb müəssisələrinin istifadəsi üçün spesifik tibbi ləvazimat və sərfiyyat materialları"nın satın alınması üzrə

*açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: +99412 310 07 70 (daxili 2011), E-mail: asalayev@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:
**LOT-1. Tibb müəssisələrinin istifadəsi üçün spesifik tibbi ləvazimat və sərfiyyat materiallarının satın alınması**

İştirak haqqı:
LOT-1: 500.00 (beş yüz manat 00 qəpik) manat;
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK - AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
*7. İddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*8. İddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı **50 (əlli) bank günü** qüvvədə olmalıdır.*
*9. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra azı **50 (əlli) bank günü** qüvvədə olmalıdır);*
*10. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
*11. Malların gigiyenik şəraitdə istehsalı və istifadəyə uyğunluğu ilə bağlı İSO 9001-2015, 14001-2015 və 45001-2018 və s. müvafiq sertifikatlar.*
*12. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **25.10.2021-ci il saat 17:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **01.11.2021-ci il saat 18:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **02.11.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Bu il Gəncə və Göygöldə həssas əhali qruplarına aid olan 700-dən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi qazi və şəhid ailələri üçün yaradılan kiçik təsərrüfatlarla əyani tanışlıq üçün mediatur təşkil edib. Jurnalistlər Gəncə şəhərində və Göygöl rayonunda yaradılan kiçik təsərrüfatlarla tanış olublar. Onlara 44 günlük Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərimizin sosial dəstəklə təminatı tədbirləri barədə məlumat verilib.







Mediatur zamanı 30 minədək şəxsi əhatə edən bu tədbirlər çərçivəsində şəhid ailəsi üzvləri və qazilərin məşğulluq məsələlərinin həllinin sürətlə aparıldığı bildirilib. Qeyd olunub ki, postmüharibə dövründə bu kateqoriyalardan ibarət 5320 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik biznes sahələri yaradılıb. 2000-dək şəxs münasib işlərlə təmin edilib. Şəhid ailəsi üzvləri və müharibədə yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədilə bu il iyunun 10-dan başlanan "Məşğulluq marafonu"na indiyədək 527 işəgötürən qoşularaq 2747 vakansiya təqdim edib, həmin vakansiyalar üzrə artıq 801 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub.

Gəncə şəhərində və Göygöl rayonunda da bu kateqoriyadan olan şəxslər üçün dəstək işləri geniş vüsət alıb. Media nümayəndələri əvvəlcə şəhid Samir Abdullayevin atası İlham Abdullayev üçün yaradılmış təsərrüfatla tanış olublar. O, postmüharibə dövründə özünüməşğulluq proqramına cəlb olunaraq proqramın dəstəyi ilə dəmirçilik fəaliyyəti üzrə avadanlıqlarla təmin olunaraq istehsal sahəsini qurub.

Şəhid Elvin Məmmədzadənin atası İlham Məmmədzadə isə proqram vasitəsilə arıçılıq sahəsində öz təsərrüfatını yaradıb. Bunun üçün proqram çərçivəsində bütün aktivlərlə təmin olunan İ.Məmmədzadə dövlətin dəstəyi ilə qurduğu işini gələcəkdə daha da inkişaf etdirmək niyyətindədir.

Vətən müharibəsi qazisi Samir Hüseynovun atası üçün yaradılan kiçik bizneslə də tanışlıq olub. S.Hüseynov bu dəstəyin onlar üçün sahibkarlığa çıxış üçün yaxşı imkan olduğunu qeyd edib.

Proqram iştirakçıları şəhid ailələri və qazilərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar kiçik ailə təsərrüfatlarını gələcəkdə genişləndirmək üçün səylə çalışacaqlarını vurğulayıblar.

Gəncə və Göygöl şəhəri üzrə bu il həssas əhali qruplarına aid 700-dən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib.

***"Azərbaycan"***

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Hacıqabul rayon şöbəsinin əməkdaşı rüşvət alarkən yaxalanıb

Vətəndaşların hüquqlarını pozmaqla korrupsiya hüquqpozmaları törədən vəzifəli şəxslərin ifşa edilmələri və məsuliyyətə cəlb olunmaları istiqamətində prokurorluq orqanları tərəfindən tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu istiqamətdə tədbirlərin davamı kimi, həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Hacıqabul rayon şöbəsinin həqiqi hərbi xidmətə çağırış bölməsinin baş məsul icraçısı Rauf Həmidov ölkə xaricində olan Hacıqabul rayon sakini, 1997-ci il təvəllüdlü Şamil Əliyevin hərbi həkim komissiyası tərəfindən təkrar tibbi müayinədən keçirilməsini növbəti çağırışadək təxirə salınmasını təşkil etmək müqabilində sonuncunun atasından rüşvət alarkən cinayət başında yaxalanıb.

Rauf Həmidov Cinayət Məcəlləsinin 311.2-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib. Ona həmin maddə ilə ittiham elan edilib və barəsində Bakı Hərbi Məhkəməsi tərəfindən həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə Baş Prokurorluğun İstintaq İdarəsində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda T5 tunelinin üst yarı hissəsində qazma işləri bitib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən iyunun 14-də yeni Əhmədbəyli-Füzuli-Şuşa 1-ci texniki dərəcəli avtomobil yolunun Daşaltı kəndi ərazisindən keçən hissəsində təməli qoyulan tunel də daxil olmaqla yolboyu ümumilikdə 7 tunelin inşası nəzərdə tutulub ki, onlardan 4-də hazırda tikinti işləri sürətlə davam etdirilir.

AZƏRTAC xəbər verir ki, şərti olaraq T5 adlandırılan və 431 metr uzunluğunda olan tunelin sol hərəkət istiqaməti üzrə üst yarı hissəsində qazma işləri artıq tamamlanıb və tuneldə daxili hərəkət təmin olunub. Tunelin 478 metr uzunluğa malik sağ istiqaməti üzrə qazma işləri isə davam etdirilir və yaxın günlər ərzində sözügedən hissədə də daxili hərəkət təmin olunacaq.

İnşasına başlanılan digər 3 tunelin (T1, T2 və T4) giriş hissələrində aparılan işlər də artıq tamamlanıb. Hazırda qazma, partlatma və qırıcı üsulları ilə tunellərdə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması davam edir.

Layihə üzrə 7 tunelin ümumi uzunluğu təqribən 6.5 km təşkil edəcək. Uzunluqları 350-3300 metrarası dəyişən tunellər bir hərəkət istiqaməti üzrə 2 hərəkət zolaqlı və 12 metr enində olacaq.

Hazırda yolboyu müxtəlif hissələrdə torpaq yatağının inşası işləri davam etdirilir. Bundan başqa, 9 viadukun, 59 suötürücü borunun və 10 yeraltı keçidin tikintisi də layihə üzrə nəzərdə tutulub ki, bu istiqamətdə də işlərə start verilib.

Qeyd edək ki, 4 və 6 hərəkət zolaqlı olmaqla iri yaşayış məntəqələrindən, həmçinin məşhur Topxana meşəliyindən yan keçməklə inşa edilən 81.6 km-lik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun ilk 48 km-i 6, 48-81.6 km arası isə 4 hərəkət zolağından ibarət olacaq. Müvafiq olaraq yol yatağının eni 29.5 və 21.5 metr təşkil edəcək.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

Sözügedən yol başlanğıcını M6 Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçir.

Bütün yollar Qarabağa aparır...

# Bəzi yerlərdə intensiv yağış yağacaq

Azərbaycanda oktyabrın 3-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-14°, gündüz 19-21° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 770 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, oktyabrın 3-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında arabir yağış yağacağı, axşam bəzi yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-16°, gündüz 18-22° isti, dağlarda gecə 1-6°, gündüz 6-10° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 23-28° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 7-12° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 7-12° isti, dağlıq ərazilərdə 0-3°, gündüz 7-12° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında arabir yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-13°, gündüz 15-19° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında arabir yağış yağacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 13-18° isti, dağlarda gecə 0-5°, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-16°, gündüz 18-22° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-15°, gündüz 17-19° isti, dağlarda gecə 7-9°, gündüz 12-14° isti olacaq.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5613
Sifariş 1789
Qiyməti 40 qəpik